Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

17
MART
2020-ci il

№ 47 (4178)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# MANATINI DOLLARA DƏYİŞƏNLƏR PEŞMAN OLACAQ - TRAMP DOLLARI KƏSKİN UCUZLAŞDIRDI...

səh. 7

MM-in ilk iclasında Prezidentin çıxışı partiyaların yeni zəruri qeydiyyat prosesinə start verdi...
səh. 3

Yeni MM köhnə MM-in siyasi radikalizm proseslərinə yetərsiz münasibətindən nəticə çıxaracaqmı - Kursu Prezident müəyyənləşdirib
səh. 9

Bakı-Ankara birliyindən İrəvana növbəti zərbə...
səh. 6

Milli Şuranın hakimiyyətlə dialoqdan imtina şərtlərinin qeyri-ciddi mahiyyəti - "hakimiyyət mövqeyinizin bir hissəsini bizə güzəşt edin..."
səh. 4

Hindistanın Şimal-Cənub dəhlizi ilə daşımalarından Azərbaycan milyonlarla gəlir götürəcək
səh. 10

Ucuz maska və spirti yenidən defisitə çevirənlər - "ancaq 4 manatdan yuxarı maskalar var", apteklərdə daha nə eşidirik...
səh. 11

Azərbaycanın demək olar ki, bütün səhiyyə və humanitar sektoru vergidən azad edildi
səh. 11

Qəlyan çəkilişlərini hələ də davam etdirən kafe və barlara hansı cəza düşür...
səh. 15



## Prezident bəzi icra məmurlarının nazir Sahil Babayevə qarşı təxribatlar etməsinin mahiyyətini açdı - işdə bəzi mətbuat orqanlarının da əli var imiş...

səh. 8-9



Mübariz Mənsimovun xaricdə həbsini də Azərbaycan hakimiyyətinin adına yazanlar tapıldı - əsasən siyasi radikallar...
səh. 4



Paşinyan 5 aprel referendumunun nəticələrindən narahatdır - koronavirus bəhanəsilə referendum təxirə salına bilər...
səh. 5

Ermənistanda koronavirus sürətlə yayılır, düşmənin Azərbaycana qarşı «koronavirusla təcavüz» planları...
səh. 5

səh. 3
Azərbaycanın siyasi sisteminin daha da təkmilləşdirilməsi üçün MM-dəki azlıq partiyalarından tələb olunan işlər...




səh. 13
İki ayda ÜDM-in üç faizlik artımının 60 faizi qaz və qeyri-neft hesabına - neftin çöküşü ilə Azərbaycanın da çökəcəyini iddia edənlərə cavab...



səh. 12
Giriş-çıxışın məhdudlaşdırılması və Azərbaycanda koronavirusla mübarizə işinin effekti...



səh. 14
Onlayn dərs alan şagird və tələbələrə pulsuz internet?...



səh. 13
"Express Bank"da istehlak kreditlərinin artımı nə ilə bağlıdır...



# Azərbaycanda koronavirusla mübarizə çərçivəsində yeni addımlar atıldı...

*Gigiyena və karantin rejimlərini pozanlar cərimələnəcək - Azərbaycanda...*

**Azərbaycanda gigiyena və karantin rejimlərini pozanlar cərimələnəcək. "Trend"in xəbərinə görə, İnzibati Xətalar Məcəlləsinə dəyişiklik məsələsi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin martın 16-da keçirilən iclasında təklif olunub.**

Belə ki, sanitariya, gigiyena və karantin rejimlərinin pozulmasına görə fiziki şəxslər 100 manatdan 200 manatdək, vəzifəli şəxslər 1500 manatdan 2000 manatək məbləğdə cərimə ediləcək.

Yaxud işlərin hallarına görə xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla bir ayadək müddətə həbs tətbiq olunur. Hüquqi şəxslər 2 min manatdan 5 min manatdək cərimə ediləcək.

İnzibati Xətalar Məcəlləsinə bununla bağlı dəyişiklik martın 17-də Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılacaq.

**Cinayət Məcəlləsinə karantin rejimlərini pozanlarla bağlı yeni maddə əlavə edilir**

Eyni zamanda Cinayət Məcəlləsinə yeni maddə əlavə edilir. Bu barədə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin martın 16-da keçirilən iclasında təklif olunub.

Yeni maddəyə əsasən, sanitariya, gigiyena və karantin rejimlərinin pozulması xəstəliklərin yayılmasına səbəb olduqda və ya xəstəliklərin yayılması üçün real təhlükə yaratdıqda 2500 manatdan 5 min manatadək cərimə və ya 3 ilədək müddətdə azadlığın məhdudlaşdırılması, yaxud 3 ilədək müddətdə azadlıqdan məhrumetmə ilə cəza tətbiq olunacaq.

Eyni əməllər insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda 3 ildən 5 ilədək müddətə azadlığın məhdudlaşdırılması və 3 ildən 5 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq.

Layihə Milli Məclisin sabah keçiriləcək iclasında müzakirəyə çıxarılacaq.

**Əli Əsədov Nazirlər Kabineti yanında Operativ qərargahın iclasını keçirdi**

Nazirlər Kabinetində Baş nazir Əli Əsədovun sədrliyilə iclas keçirilib. Bu barədə baki-xeber.com-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

İclasda koronavirus epidemiyası ilə bağlı ölkədəki vəziyyət və hadisələrin mümkün inkişafı variantları, müxtəlif variantlarda hansı tədbirlərin görüləcəyi müzakirə olunub.

**Koronavirus aşkarlanmayan 711 nəfər karantindən evə buraxılıb**

Azərbaycanda indiyə qədər koronavirus aşkarlanmayan 711 nəfər karantindən evə buraxılıb. Bunu Milli Məclisin Səhiyyə və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

O qeyd edib ki, hazırda karantində 560 nəfər var: "Biz gün ərzində 5 mindən çox insanı sürətlə və yüksək dəqiqliklə test etmək imkanına malikik. Bu günə qədər 4200-ə qədər müayinə aparılıb. 25 nəfərdə koronavirus aşkarlanıb. Onlardan 7 nəfərdə inkubasiya dövrü bitib və sağalaraq evə buraxılıblar".

R.Bayramlı bildirib ki, Azərbaycan koronavirusla mübarizə aparmaq üçün kifayət qədər dərman və tibbi ləvazimat ehtiyatına malikdir.

**Azərbaycanda koronavirusa görə fövqəladə vəziyyət elan edilməsinə ehtiyac yoxdur**

R.Bayramlı Azərbaycanda koronavirusa görə fövqəladə vəziyyət elan ediləcəyi ilə bağlı məlumata da münasibət bildirib. O bildirib ki, hazırda Azərbaycanda koronavirus infeksiyasının yayılması intensivliyi ciddi nəzarət altındadır.

TƏBİB İdarə Heyətinin sədri deyib ki, Azərbaycanda koronavirusla mübarizə ilə əlaqədar fövqəladə vəziyyət elan edilməsi vəziyyətdən asılıdır. Onun sözlərinə görə, əgər belə bir təhlükə olarsa, dərhal müvafiq qurumlara, hökumətə müraciət ediləcək: "Ancaq bu gün infeksiyanın yayılma intensivliyi və prosesini nəzarətdə saxlamağımız buna qəti surətdə əsas vermir. Avropanın bir sıra ölkələri fövqəladə vəziyyət elan edib, amma Azərbaycanda vəziyyət elə deyil. Bizdə koronavirusla bağlı intensivlik o həddə deyil, ona görə də buna ehtiyac yoxdur".



R.Bayramlı qeyd edib ki, karantində saxlananların bir qismi Bakı, digərləri rayonlardakı xəstəxanalardadır. Onun sözlərinə görə, ağır halda olan xəstələr Bakıda müvafiq xəstəxanalarda, daha yüngül vəziyyətdə olanlar rayonlardakı xəstəxanalardadır.

**Türkiyə ilə uçuşlar martın 31-dək dayandırılıb**

Azərbaycanla Türkiyə arasında aviareyslər koronavirus təhlükəsi il əlaqədar martın 31-dək dayandırılıb. "Türk Hava Yolları" aviaşirkətinin açıqlamasında qeyd olunur ki, qərar martın 15-dən qüvvəyə minib.

Qərara əsasən, qeyd olunan tarixlərə biletləri olan müştərilər həmin biletləri geri qaytara, mayın 31-dək uzada və ya mayın 31-dək başqa istiqamətə uçuşlara dəyişə bilər.

Azərbaycanda qalan Türkiyə vətəndaşları üçün zərurət yarandığı təqdirdə təxliyə uçuşları təşkil olunacaq.

Biletlər "Türk Hava Yolları"nın saytından alınıbsa, şirkətin çağrı mərkəzləri vasitəsilə, digər internet saytlarından alınıbsa, orada göstərilən nömrələr vasitəsilə, hər hansı bir agentlikdən alınıbsa, həmin agentlikdə dəyişdirilə bilər.

Şirkətin Bakı və Gəncə ofislərindən yalnız bu ofislərdən alınan biletlər dəyişdirilə bilər.

"Türk Hava Yolları" çağrı mərkəzi ilə əlaqə saxlamaq üçün:

+994 12 404 8 849
+90 212 444 0 849

**Bakıdan Ukraynaya sərnişin qatarlarının hərəkəti dayandırılır**

Ukrayna ərazisinə sərnişin qatarlarının hərəkəti dayandırılır. "Azərbaycan Dəmir Yolları" QSC-nin Mətbuat katibliyi şöbəsindən verilən məlumata əsasən, Ukrayna Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, koronavirus (COVİD-19) infeksiyasının Ukrayna Respublikasının ərazisində yayılmasının qarşısının alınması məqsədilə martın 17-si saat 00:01-dən etibarən bütün beynəlxalq sərnişin qatarlarının hərəkəti müvəqqəti dayandırılıb.

Bununla əlaqədar Bakıdan 21 mart tarixindən 369/370 nömrəli Bakı-Kiyev-Bakı sərnişin qatarı və tərkibində hərəkət edən Bakı-Dnepr birbaşa vaqonunun hərəkəti xüsusi göstərişədək dayandırılır.

Bakıdan 14 mart tarixində yola düşən Bakı-Kiyev-Bakı sərnişin qatarı isə Xarkov-sərnişin stansiyasına kimi hərəkət edib. Qatar geriyə Xarkov-sərnişin stansiyasından bu gün yerli vaxtla saat 15:30-da yola düşməklə, Rusiya ərazisinə təhvil veriləcək və öz hərəkət cədvəli üzrə Bakıya qaytarılacaq.

Qeyd edək ki, koronavirus infeksiyası (COVİD-19) dünya ölkələri arasında sürətlə yayılmaqda davam edir.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında operativ qərargahdan bildirilib ki, virusun uzun inkubasiya dövrünün olması, yayılma sürəti və vaksinin hələ də tapılmaması dövlətləri daha ciddi tədbirlər görməyə sövq edir.

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu nəzərə alaraq və virusun qarşısının alınması istiqamətində Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə və tələblərindən irəli gələrək ölkə ərazisində bir sıra təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zərurəti yaranıb.

Bununla əlaqədar bir ay müddətində kütləvi tədbirlərin təxirə salınması qərara alınıb. Həmçinin dövlət və özəl sektora aid qurumlardan, vətəndaşlardan xüsusi qaydalara ciddi riayət etmələri tələb olunur.

***Baki-xeber.com***

# Eldar Sultanov koronavirusla əlaqədar şayiə yayanlarla bağlı Prokurorluğun mövqeyini bir daha bəyan etdi...




**Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Eldar Sultanov koronavirusla bağlı "ASAN Radio"ya müsahibə verib.**

Baş Prokurorluqdan "Bakı-Xəbər"ə verilən xəbərə görə, koronavirusla əlaqədar şayiə yayanların barəsində hüquqi məsuliyyət tədbirlərinin görülməsi ilə bağlı "ASAN Radio"ya müsahibə verən Eldar Sultanov bildirib:"Müzakirəsinə qatıldığım məsələ miqyasına görə nəinki ölkə vətəndaşlarının, bütövlükdə dünya ictimaiyyətinin maraq dairəsində olan narahatlıqdır. Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən aidiyyəti dövlət orqanları, o cümlədən TƏBİB, Səhiyyə Nazirliyi ilə əlaqəli şəkildə qeyd edilən virusun yayılmasının qarşısının alınması istiqamətində qabaqlayıcı və profilaktik tədbirlər barədə, eləcə də virusa yoluxmuş və karantinə alınmış şəxslərin sayı, onların müalicəsi və görülmüş digər tədbirlər barədə mütəmadi olaraq ictimaiyyətə məlumat verilməsinə baxmayaraq, bəzi kütləvi informasiya vasitələri və ayrı-ayrı sosial şəbəkə istifadəçiləri tərəfindən Daxili İşlər Nazirliyi və Baş Prokrorluğun xəbərdarlıqlarından nəticə çıxarmayaraq, həqiqəti əks etdirməyən və cəmiyyətdə süni ajiotaj yaratmağa hesablanmış şayiələr yayılır".

Baş Prokurorluğun rəsmisi əlavə olaraq bildirib:"İctimaiyyətdə yanlış fikir formalaşdırması məqsədi güdən və qəsdən bu kateqoriyadan olan informasiyaların yayılmasını həyata keçirən KİV, o cümlədən sosial şəbəkə istifadəçilərini bir daha xəbərdar edirik ki, gələcəkdə bu qəbildən olan qanunazidd hərəkətlərini davam etdirəcəkləri təqdirdə barələrində, cinayət məsuliyyəti də daxil olmaqla, ən ciddi qanunamüvafiq tədbirlərin görülməsi təmin olunacaq".

Yanlış fikrin formalaşmasına xidmət edən məlumatları yayan şəxslərin cəzalandırılması ilə bağlı məlumat verən Eldar Sultanov əlavə edib:"Bəzi KİV və sosial şəbəkələrdə cəmiyyətdə süni ajiotaj yaradılmasına maraqlı olan şəxslər tərəfindən bir neçə gün əvvəl guya koronavirusa yoluxmuş şəxsin xəstəxanada vəfat etməsi ilə bağlı bir səs yazısı yayılıb. İctimaiyyətdə yanlış fikrin formalaşmasına xidmət edən həmin məlumatlar həqiqəti əks etdirmədiyindən tərəfimizdən dərhal təkzib olunub. Eyni zamanda, aparılmış araşdırmalarla həmin şəxsin xəstəxanada ağ ciyərlərin pnevmaniyası səbəbindən vəfat etdiyi müəyyən olunub və bu barədə ictimaiyyətə məlumat verilməklə həmin məlumatı yayan KİV-ə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq rəsmi xəbərdarlıq edilib. Fürsətdən istifadə edərək, sonda Azərbaycan Respublikasının Baş Prokurorluğu olaraq vətəndaşlarımızı belə yalan məlumatlara inanmamağa, yalnız səlahiyyətli dövlət orqanlarının rəsmi məlumatlarını nəzərə almağa çağırıram".

# MM-in ilk iclasında Prezidentin çıxışı partiyaların yeni zəruri qeydiyyat prosesinə start verdi...

**Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni formalaşan parlamentin ilk iclasındakı çıxışında Azərbaycanda çoxpartiyalı sistemin təkmilləşdirilməsinin, siyasi partiyaların cəmiyyətdəki rolunun artırılmasının zəruri olduğunu qeyd edib: "Deyə bilərəm ki, həm altıncı çağırış Milli Məclis bu sahədə, əlbəttə, öz sözünü deyəcək, eyni zamanda, Prezident Administrasiyasının nümayəndələri son vaxtlar, demək olar ki, bütün siyasi qüvvələrin rəhbərləri ilə görüşlər keçirirlər.**

Mənə bu görüşlər haqqında müntəzəm olaraq məruzə edilir. Bütövlükdə, ilkin rəy müsbətdir. Hesab edirəm ki, indiki geniş miqyaslı islahatlar dövründə siyasi islahatlar mütləq aparılmalıdır. Siyasi islahatlar partiyalararası geniş dialoq aparılmadan həyata keçirilə bilməz. Bir partiya - hakim partiya təkbaşına siyasi dialoq apara bilməz. Çünki dialoq üçün tərəf-müqabillər lazımdır və ilkin təəssürat müsbətdir. Bu təşəbbüs heç bir şərt qoymadan həyata keçirilir. Ancaq yenə də marginallaşmış və bütün dayaqlarını tam itirmiş dərnək tipli qruplaşma bu görüşdən imtina etdi. İmtina edib, indi özü bilər. Hər halda, uduzan biz olmayacağıq. Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır. Hesab edirəm ki, qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq. Hazırda siyasi partiyanı yaratmaq üçün heç bir ciddi meyar tələb olunmur. Hesab edirəm ki, bu praktikaya son qoyulmalıdır. Əgər biz doğrudan da istəyirik ki, Azərbaycanda çoxpartiyalı sistem inkişaf etsin, - biz bunu istəyirik və iqtidar partiyası kimi bunu təqdim edirik, - onda, əlbəttə, siyasi partiyaların fəaliyyəti üçün lazım olan bütün alətlər spektri mövcud olmalıdır. Bu, hesab edirəm ki, Milli Məclisin gündəliyində duran məsələlərdən biri olacaqdır".

Göründüyü kimi, ölkə başçısı qeyd edir ki, hazırda siyasi partiyanı yaratmaq üçün heç bir ciddi meyar tələb olunmur. Prezident bildirir ki, bu praktikaya son qoyulmalıdır. Bu çıxışdan belə nəticəyə gəlmək olarmı ki, ölkədəki siyasi partiyaların yeni qeydiyyat prosesinə başlana bilər?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov qəzetimizə bildirdi ki, Azərbaycanın siyasi palitrasını müəyyən edən bütün siyasi partiyaların, həm iqtidaryönümlü, həm də müxalif partiyaların fəal olması lazımdır: "Hiss olunur ki, son vaxtlar hakimiyyətin başlatdığı islahat kursu bu sahəni də əhatə etməyə hazırlaşır. Hakimiyyət nümayəndələri ilə partiya rəhbərlərinin görüşünü buna misal çəkə bilərik. Ən başlıcası isə ölkə başçısının

## *Elşən Həsənov: "Maraqlı olan budur ki, qeydiyyatdan keçən partiyaların bir çoxunun yalnız adı və sədri var"*



parlamentdəki çıxışından göründü ki, siyasi partiyalarla da bağlı islahatların aparılmasına zərurət yaranıb. Bu islahatlara ilk olaraq partiyaların qeydiyyatından başlamalıyıq. Ölkədə qeydiyyatdan keçmiş 55 partiyanın olduğu deyilir. Ancaq qeydiyyata alınmayan partiyalar da var. Biz məsələyə tam ədalətli yanaşsaq, ortaya siyasi partiya adına layiq olan çox az sayda təsisat çıxacaq. Maraqlı olan budur ki, qeydiyyatdan keçən partiyaların bir çoxunun yalnız adı və sədri var, amma qeydiyyata alınmayan fəal partiyalar fəaliyyətlərini legitimləşdirə bilmirlər. Görün vəziyyət nə yerə çatıb ki, vaxtilə partiyasını qeydiyyatdan keçirməyi bacarmış şəxslər hətta adı, partiyanı satmaqla bağlı bazarlıq da edirlər. Bütün bunlar partiya adı ilə qeydiyyatdan keçən qurumların heç də hamısının siyasi fəaliyyətlə məşğul olmadığını təsdiqləyir. Bizim partiya çox fəal fəaliyyət göstərir. Bütün seçkilərdə iştirak edirik, amma sənədlərimiz bir neçə dəfə qeydiyyatdan geri qaytarılıb. Hesab edirəm ki, ölkə başçısının siyasi partiyaların yaradılması ilə bağlı meyarların müəyyən edilməsi tələbini irəli sürməsi çox doğrudur. Partiya adı ilə qeydiyyatdan keçib, sonra siyasi fəaliyyətlə məşğul olmamaq hansı anlama gələ bilər? Partiyaların yenidən qeydiyyatının keçirilməsini biz də tələb edirik. Qoy meydanda əsl siyasətlə məşğul olan təsisatlar qalsın".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanın siyasi sisteminin daha da təkmilləşdirilməsi üçün MM-dəki azlıq partiyalarından tələb olunan işlər...

**Azərbaycanda aparılan islahatlar siyasi sistemi də əhatə etməyə başlayıb. Artıq ölkənin ali rəhbərliyi səviyyəsində yeni siyasi konfiqurasiyanın formalaşdırılmasına maraq göstərilir. Cəmiyyətdə, ölkənin idarə olunmasında siyasi partiyaların rolunun artırılmasına cəhdlər nəzərə çarpır.**



Təsadüfi deyil ki, Prezident İlham Əliyev də parlamentin ilk iclasındakı çıxışında da bu məqama toxunub: "Beləliklə, bütün siyasi qüvvələrin iştirak etdiyi seçkilər nəticəsində çoxpartiyalı parlament formalaşıb və hesab edirəm ki, bu, demokratiyanın inkişafında önəmli addımdır. Bildiyiniz kimi, Yeni Azərbaycan Partiyası yerlərin əksəriyyətini qazanıb. Təbii ki, Yeni Azərbaycan Partiyasının Milli Məclisdə sözü kifayət qədər qiymətlidir və təsirlidir. Yeni Azərbaycan Partiyasını təmsil edən deputatlar bu gün səhər mənim tapşırığımla yığışmışlar və önəmli qərarlar qəbul etmişlər. Mənim tövsiyəm o olmuşdur ki, partiyaların nümayəndələri altıncı çağırış Milli Məclisin rəhbərliyində və komitələrin rəhbərliyində təmsil olunsunlar. Bu günə qədər belə bir hal olmamışdır. Keçən çağırış Milli Məclisin komitələrinin rəhbərliyində, parlamentin rəhbərliyində müxalifət nümayəndələri təmsil olunmurdu. Ancaq mən hesab edirəm ki, Azərbaycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək üçün buna ehtiyac var. Əlbəttə, hesab edirəm ki, Yeni Azərbaycan Partiyası ümumi maraqlar naminə bu sahədə də çox düzgün addım atır".

## *Bünyamin Qənbərli: "Orada təmsil olunan partiyalar qanunvericilik təşəbbüsləri ilə çıxışlarını artırmalıdırlar"*

Göründüyü kimi, ölkə başçısı siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclisdə təmsil olunan azlıqdakı partiyalardan da fəal görmək istəyir. Bəs bunun üçün azlıqda olan parlament partiyalarının üzərinə hansı məsuliyyət düşür, onlardan hansı yöndə işlərin görülməsini gözləməliyik?

Parlamentdə təmsil olunan Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədr müavini Bünyamin Qənbərli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, indiki vəziyyət vətəndaşların partiyalara üzv olmaq marağını öldürür: "Bu da partiyaların cəmiyyətdəki rolunu azaldır. Çünki bizim parlamentə seçkilər proporsional yox, mojaritar sistem üzrə aparılır. Bu səbəbdən də parlamentdə təmsil olunmaq istəyən şəxslərin partiya dəstəyinə heç bir ehtiyacı olmur. Seçki sistemi dəyişsə, bu zərurət yarana bilər. Bunun cəmiyyətimizin inkişafına, əhalinin siyasi cəhətdən maariflənməsinə ciddi xeyri olacaq. Faktiki olaraq bizdə yeni parlament formalaşıb və biz indiki vəziyyətdən danışmalıyıq. Parlamentdə Prezidentin çıxışı və bundan doğan nəticələri müsbət qarşılayırıq. Görürsünüz ki, əvvəllər olmayan mənzərə yaranıb. Parlamentin komissiyalarının rəhbərliyində və eləcə də parlamentin öz rəhbərliyində müxalifəti təmsil edən deputatlar təmsil olunurlar. Bunun partiyaların rolunun artmasına xeyri var. Partiyaların da üzərinə daha fəal olmaqla bağlı məsuliyyət düşür. Onlar parlament çoxluğu olan hakim partiya ilə müxaliflik etməyi bacarmalıdırlar. Cəmiyyətdəki müxalif fikirləri parlamentə təqdim etməlidirlər. Eyni zamanda, orada təmsil olunan partiyalar qanunvericilik təşəbbüsləri ilə çıxışlarını artırmalıdırlar. Bizim partiya əvvəlki parlamentlərin dövründə bir neçə dəfə belə təşəbbüslə çıxış edib. Düzdür, layihə tam qəbul olunmayıb, amma sonrakı dönəmlərdə layihənin müəyyən bəndləri qəbul edilib. Prezident bir məsələyə də diqqəti yönəltdi. Bu da parlamentin hökumət üzərindəki nəzarətinin gücləndirilməsidir. Hesab edirəm ki, bu istiqamətdə də parlamentdə təmsil olunan partiyaların üzərinə ağır yük düşür. Çünki hökumətin vacib nöqsanlarını məhz onlar tapıb dilə gətirməlidir".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Azərbaycan əsilli milyarder Mübariz Mənsimov Türkiyədə həbs edilib. Onun həbsi ilə bağlı sosial şəbəkələrin Azərbaycan seqmentində çoxlu sayda paylaşım edilir. Maraqlıdır ki, həmin paylaşımların bir çoxunda heç ciddi sübut və dəlilə əsaslanmadan tanınmış iş adamının Azərbaycan hakimiyyətinin sifarişi ilə həbs edildiyinə dair fikirlər dövriyyəyə buraxılır.**

# Mübariz Mənsimovun xaricdə həbsini də Azərbaycan hakimiyyətinin adına yazanlar tapıldı - əsasən siyasi radikallar...



Ən qəribəsi budur ki, hakimiyyətlə antoqonist mövqedə olan siyasi radikal qruplar da bu həbsin arxasında Azərbaycan hakimiyyətini gördüklərini bəyan edirlər. AXCP sədri Əli Kərimlinin həbs xəbərindən sonra öz hesabında yazdığı fikirlərə diqqət edək: "Azərbaycan əsilli milyarder Mübariz Mənsimovun həbsi siyasi qərardır. Şübhə etmirəm ki, bu həbsin təşəbbüsü Azərbaycan hakimiyyətindən gəlib... Azərbaycandakı hakimiyyət bir zəngin iş adamının dünya okeanında "Məhəmməd Əmin Rəsulzadə", "Əbülfəz Elçibəy" adlı gəmilər üzdürməsini həzm edə bilməzdi. Milyardları olan bir zəngin iş adamının SOCAR-ı (əslində, həm də onun simasında hakimiyyəti) açıq və sərt tənqid etməsini, ictimai-siyasi proseslərlə bağlı müstəqil fikirlərini vaxtaşırı ictimaiyyətlə paylaşmasını özünə təhlükə gördü. Türkiyə hakimiyyətinin bu həbs sifarişini yerinə yetirməsinə çox təəssüflənirəm. Türkiyə və Azərbaycan cəmiyyətinin bu həbsi diqqətdə saxlayacağına ümid edirəm. Mübariz Mənsimov azad edilməlidir".

Göründüyü kimi, ixtisasca hüquqşünas olan Əli Kərimli həbsin hansı səbəbdən baş verdiyini araşdırmadan, bununla bağlı rəsmi açıqlamanı gözləmədən yalnız öz təxəyyülünə əsaslanaraq iki qardaş ölkə arasındakı münasibətləri zədələyə biləcək açıqlama verir. Bununla o həm siyasi məsuliyyətsizlik edir, həm də Türkiyənin oturuşmuş hüquq sisteminin iş fəaliyyətini zərbə altına qoymuş olur. Ə.Kərimlinin bu açıqlamasından sonra Türkiyənin rəsmi dairələri iş adamının həbsinin hansı səbəbdən reallaşdığına dair məlumatı ictimaiyyətin diqqətinə təqdim etdilər. Məlum oldu ki, "Palmali" Şirkətlər Qrupunun rəhbəri, azərbaycanlı iş adamı M.Mənsimov və şirkətin meneceri Nuray Nurcahan Perker FETÖ/PDY istintaqı çərçivəsində saxlanıblar.

İstanbul Cümhuriyyət Baş Prokurorluğunun apardığı istintaq çərçivəsində saxlanan Mənsimov və Perkerin FETÖ-nün yüksək səviyyəli rəsmisi ilə sıx əlaqədə olduğu bildirilib.

Mənsimovun İstanbulun Beşiktaş rayonundakı evində və Leventdəki ofisində axtarış və İstanbul Polis İdarəsinin Maliyyə cinayətləri ilə mübarizə şöbəsində araşdırma aparıldığı da qeyd olunub.

Türkiyə hökumətinin 667 saylı qərarı ilə bağlanan Türk-Rus Vəqfinin də qurucusu olan Mənsimovun telefon danışıqlarının araşdırılması nəticəsində FETÖ-nün yüksək səviyyəli idarəçilərindən olan Hamdi Akın İpək, Suat Yıldırım və Süleyman Uysalla telefon danışıqları apardığı, FETÖ ilə əlaqədə olduğu üçün Rusiya tərəfindən bağlanan "Atlantic İnternational School"un idarə heyətində təmsil olunduğu iddia edilib.

Bundan başqa, Mənsimovun FETÖ-nün Rusiya imamı olan və haqqında axtarış elan olunan "Saffet" kod adlı Əhməd Hamdi Vuralla əlaqədə olduğu, Vuralın iş adamının şirkətinə tez-tez gəldiyi və gəlişi zaman danışıqların eşidilməsinin qarşısını alan "Jammer" cihazını tətbq edərək təhlükəsizlik tədbirlərini gördükləri də iddialar arasındadır. Hətta Mənsimovun Vuralla birlikdə səyahətə çıxdığı da bildirilib.

Azərbaycanlı iş adamının haqqında axtarış elan olunan FETÖ-çü Müəmmər İhsan Kalkavan, FETÖ-nün Yüksəl-Karkın-Küçük (YKK) vəkillik bürosu ilə də sıx əlaqədə olduğu iddiası müzakirədədir.

Göründüyü kimi, ortada olduqca ciddi faktların olduğu üzə çıxır. Qədim dövlətçilik ənənələrinə malik olan Türkiyədə çox oturuşmuş hüquq sistemi mövcuddur. Hansısa başqa bir ölkədən olan istəklə belə çapda olan tanınmış bir adamın həbsə atılması həmin ölkəyə heç lazım deyil. Hələlik bu işlə bağlı ilkin araşdırmalar gedir. Son sözü məhkəmə deyəcək. Bu səbəbdən də iş adamının həbsinə bildirilən münasibətlərdə ifrata varmaq yersiz və əsassız görünür. Xüsusilə də ölkəmizdə olan radikal siyasi dairələrin bu məsələ ətrafında yaratdıqları ajiotaj siyasi alver niyyətindən başqa nəyəsə bənzəmir və daha çox Mənsimovun pullarına atılan qarmağı xatırladır. Bu səbəbdən də Azərbaycan vətəndaşları panikaya uymamalı və yalnız Türkiyə məhkəmələrinin qərarını gözləməli, onlara uyğun məsələyə münasibətlərini açıqlamalıdırlar.

*Məhəmmədəli QƏRİBLİ*

**Məlum olduğu kimi, son günlər Prezident Administrasiyasının rəhbərliyində təmsil olunan şəxslərin müxtəlif siyasi partiyalarla təmasları baş tutur. Bunun təşəbbüskarı qismində hakimiyyət çıxış edir. Hətta bir çox müxalif partiya da belə görüşdə iştirak etdiyini bildirib. Görüşdən, hakimiyyətlə təmaslardan imtina edən siyasi qüvvələr də var.**

# Milli Şuranın hakimiyyətlə dialoqdan imtina şərtlərinin qeyri-ciddi mahiyyəti - "hakimiyyət mövqeyinizin bir hissəsini bizə güzəşt edin..."

## *Qabil Hüseynli: "Qarşıdurma havasına köklənən siyasi qurumların bu mövqeyinin ümumi prosesə heç bir təsiri olmayacaq"*



Xüsusilə də radikal mövqeləri ilə tanınan və siyasi mühitdəki fəaliyyətləri ilə bir-birini kopyalayan AXCP ilə Milli Şura belə görüşdə iştirakla bağlı xüsusi şərtlər ortaya qoyurlar. İrəli sürülən həmin şərtləri nəzərdən keçirdikdə məlum olur ki, hər iki qurum mətni bir-birindən köçürüb. Hər halda, siyasi etika tələb edir ki, adı fərqli olan bu qurumların şərtləri də azacıq bir-birindən fərqlənsin. Biz isə bunun tərsini görürük. Bildirilir ki, Milli Şuranın üzvü Gültəkin Hacıbəyli Prezident Administrasiyasına dəvət olunub. Bu barədə onun özü açıqlama verib.

O deyib ki, Prezident Administrasiyasının Siyasi Partiyalar və Qanunvericilik Hakimiyyəti ilə iş şöbəsinin rəhbəri Ədalət Vəliyevdən görüş təklifi alıb: "Bu təklifi həm Milli Şuranın sədri, hazırda ABŞ-da elmi ezamiyyətdə olan professor Cəmil Həsənli ilə, həm də Milli Şuranın Koordinasiya Mərkəzində dostlarla dəyərləndirdik.

Konseptual olaraq iqtidar və müxalifət arasında siyasi dialoq ideyasını dəstəklədiyimizi bildirdim. Lakin bu görüşlər imitasiya xarakterli deyil, real dialoqun gerçəkləşməsinə xidmət etməlidir.

Digər tərəfdən, görüşlər Prezident Administrasiyasının şöbə müdiri ilə deyil, siyasi hakimiyyətin siyasi qərarların qəbuluna təsir etmək səlahiyyəti və imkanı olan yüksək təmsilçilərilə keçirilməlidir.

Milli Şura olaraq düşünürük ki, çox ağır problemlərlə yüklənmiş ölkənin iqtidarı ilə müxalifəti ilk öncə aşağıdakı mövzularda müzakirə aparıb ölkənin taleyüklü problemlərinin həllinə çalışmalıdır:

1. Siyasi məhbusların azad edilməsi;
2. Sərbəst toplaşma azadlığının təmin edilməsi;
3.Seçki islahatları;
4. Yeni parlament seçkilərinin keçirilməsi;
5. Qarabağ və təhlükəsizlik sahəsində mövcud təhlükələr və təhdidlər".

G.Hacıbəyli qeyd edib ki, üzləşdikləri təzyiq və təqiblərə baxmayaraq, ölkənin və xalqın ali maraqlarından çıxış edərək, qeyd edilən mövzular ətrafında Azərbaycan hakimiyyətilə siyasi dialoqa hazırdırlar.

Bəllidir ki, Əli Kərimlinin qələmindən çıxdığı şübhə doğurmayan bu şərtləri irəli sürməklə hakimiyyətlə dialoqa getmək qeyri-mümkündür. Bununla radikallar hakimiyyətdən sanki səlahiyyətlərinin bir hissəsini istəyirlər. Radikal dairələrin bu mövqeyinin siyasi proseslərə nə kimi təsiri ola bilər?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hakimiyyətin ortaya qoyduğu siyasi iradə təqdir olunmalıdır: "Çoxpartiyalı siyasi sistemin inkişafı üçün siyasi partiyalarla məsləhətləşmələrə ehtiyac duyulur. Bunun üçün də Prezident Administrasiyası müxtəlif siyasi partiyalarla görüşlər keçirir. Bəzi partiyaların və qurumların qabaqcadan şərtlər qoyması dialoqdan yayınmaq üçün bəhanədir. Həmin şərtlərə baxdıqda məlum olur ki, hakimiyyət onu qəbul edən deyil. Çünki mədəni şəkildə hakimiyyətə deyilir ki, biz sizinlə görüşmürük. Mənə elə gəlir ki, belə dialoqun keçirilməsi hakimiyyətdən daha çox, partiyalara lazımdır. Çünki siyasi partiya yalnız vəziyyəti gərginləşdirmək üçün ortaya atılmayıb. Onlar həm üzvlərinin, həm də cəmiyyətin problemlərinin nizama düşməsində maraqlı olmalıdırlar. Bunun da yolu hakimiyyətlə dialoqdan keçir.

Sən get görüş, xoşun gəlməyəcəksə, gələcəkdə əməkdaşlıq etmə. Burada qeyri-adi nə var ki? Tarixdən bəllidir ki, hətta ən radikal qüvvələr belə hakimiyyətlərlə kompromislərə gediblər. Siyasi lider və partiya manevrləri də bacarmalıdır. Bunu edə bilmirsə, bizdəki durum ortada olacaq. Xüsusilə də indiki şəraitdə, Azərbaycana beynəlxalq basqılar gücləndiyi, torpaqlarımızın hələ də işğal altında olduğu dönəmdə milli birliyin nümayişi vacibdir. Qarşıdurma havasına köklənən siyasi qurumların bu mövqeyinin ümumi prosesə heç bir təsiri olmayacaq. Onların bütün ziyanları özlərinə dəyəcək. Radikal dairələrin görüşdən imtinası ilə xalqa xidmət arzuları üst-üstə düşmür".

*Məhəmmədəli QƏRİBLİ*

# Ermənistanda koronavirus sürətlə yayılır, düşmənin Azərbaycana qarşı "koronavirusla təcavüz" planları...

**Cənubi Qafqaz ölkələri arasında koronavirusun kütləvi yayıldığı ölkə Ermənistandır. Qısa zaman ərzində Ermənistanda 32-dən artıq şəxsdə koronavirus aşkarlandığı məlumdur. Hətta faktı bu ölkənin Səhiyyə naziri "Facebook" hesabında təsdiqləyib və bildirib ki, ölkədə bu virusa yoluxanların sayı günü-gündən artmaqdadır.**



***Azər Həsrət:** "Ermənistanın hazırda bu ölkəni aciz duruma salan koronavirusdan bir "silah" kimi ölkəmizə, ordumuza qarşı istifadə etməsi ehtimalı yox deyil, diqqətli olmalıyıq"*

Onu da vurğulayaq ki, Ermənistanın Baş naziri Nikol Paşinyanın və həyat yoldaşının da koronavirusa görə karantinə götürüldüyü barədə rəsmi xəbərlər yayılıb. Bundan əlavə, Ermənistan ordusunda da koronavirusun sürətlə yayıldığı bildirilir, hətta onlar arasında yüksək çinli hərbçilərin də olduğu istisna edilmir. Bir sözlə, bu gün Ermənistan bölgədə koronavirusun çox geniş yayıldığı bir ölkədir. Cəmi 3 milyon vətəndaşı olan bir ölkədə hər 10 min adamdan birinin koronavirusa yoluxması ciddi faktdır. Heç şübhəsiz ki, bu da daha çox bu ölkədə koronavirusla bağlı təhlükəsizlik tədbirlərinin görülməməsi ilə əlaqədardır.

Ermənistan əhalisinin kütləvi olaraq koronavirusa yoluxması Cənubi Qafqaz bölgəsi üçün böyük təhlükə mənbəyidir. Məlumdur ki, 10 milyon əhalisi olan Azərbaycanda cəmi 3-4 nəfərdə bu virus aşkarlanıb və həmin şəxslər də müalicəyə cəlb ediliblər.

Koronavirus böhranı içində çabalayan Ermənistan koronavirusdan Azərbaycan əleyhinə necə istifadə edə bilər? Bu ölkə respublikamızda bu virusun geniş yayılması üçün nə kimi təxribatlara əl ata bilər? Ümumiyyətlə, bu virusu Azərbaycan ərazisində yaymaq üçün cəhdlər edə bilərmi?

Siyasi şərhçi Azər Həsrət Azərbaycana qarşı hər zaman məkrli siyasət yürüdən Ermənistanın bu virusun Azərbaycanda da kütləvi şəkildə yayılması üçün istənilən təxribata əl atmağa hazır olduğunu qeyd etdi. O hesab edir ki, Ermənistan istənilən vasitədən istifadə edərək Azərbaycana qarşı belə bir addım ata bilər. "Həqiqətən də Ermənistan çox məkrli və xain düşməndir. Ermənilərin xisləti bundan ibarətdir ki, üzbəüz heç nə etmirlər, amma axradan zərbə endirirlər. Ermənistanın hazırda bu ölkəni aciz duruma salan koronavirusdan bir "silah" kimi ölkəmizə, ordumuza qarşı istifadə etməsi ehtimalı yox deyil, diqqətli olmalıyıq. Bu gün dünyanın aparıcı dövlətləri belə bu virusun qarşısında acizdirsə, demək, bundan tam olaraq yayınmaq, qorunmaq imkanları mümkün deyil. Ermənilərin bizim ərazilərimizə koronavirusa yoluxmuş "fərari əsgər" göndərib bu təxribatı həyata keçirmək ehtimalı böyükdür. Gürcüstan-Azərbaycan sərhədləri bağlı olsa da, Gürcüstanda yaşayan soydaşlarımızın həm Ermənistan, həm də Gürcüstan erməniləri ilə təmasları mövcuddur, onlar bundan istifadə edərək azərbaycanlıları yoluxdura bilərlər. Bundan başqa, bilirsiniz ki, bəzi çaylar Ermənistan ərazisindən keçərək ölkəmizə axır və ermənilər çaylar vasitəsilə də Azərbaycan əhalisini yoluxdurmaq üçün təxribatlara əl ata bilərlər. Yəni biz buna hazır olmalıyıq. Azərbaycan dövləti də, vətəndaşları da bu məsələdə ayıq-sayıq olmalıdır".

*"Bəzi çaylar Ermənistan ərazisindən keçərək ölkəmizə axır və ermənilər çaylar vasitəsilə..."*

A.Həsrət bildirdi ki, sərhədlərimizi bağlasaq da, bu virusun hava ilə keçmək ehtimalı da böyükdür. Hazırda Azərbaycan dövlətinin kifayət qədər ayıq-sayıqlıq nümayiş etdirdiyini deyən A.Həsrət bildirdi ki, bütün dövlət qurumları ölkə əhalisinin bu bəladan xilas olması üçün tədbirlər həyata keçirirlər.

***İradə SARIYEVA***

# Paşinyan 5 aprel referendumunun nəticələrindən narahatdır - koronavirus bəhanəsilə referendum təxirə salına bilər...

**Ermənistanda cərəyan edən son hadisələrin təhlili bu ölkədə Baş nazir Nikol Paşinyana qarşı dərin bir etimadsızlığın hökm sürdüyünü üzə çıxarır. Dünənə qədər demokratiya və qanunçuluqdan dəm vuran Paşinyan vəzifəsini qoruyub saxlamaq üçün radikal addımlar atır.**



***Mübariz Əhmədoğlu:** "...Paşinyan koronavirusu bəhanə edib referendumun keçirilmə vaxtını dəyişə bilər"*

Məhz belə vəziyyətdə problemlər içərisində boğulan Ermənistan əhalisi yeni hökumətə də etibar etmir. Aprelin 5-də keçiriləcək referendumda əksər siyasi qüvvələr iştirak etmək istəmədiklərini bildirirlər. Eyni zamanda, ermənilər bu şounun onların həyatlarını yaxşılığa doğru dəyişməyəcəyinə inanırlar. Bu səbəbdən səsverməyə gəlməmək-də israrlıdırlar.

Bu arada erməni mətbuatı yazır ki, Paşinyan referendumla bağlı təbliğatın azaldılması barədə vəkillərinə göstərişlər verib. Vurğulanır ki, referendum payıza qədər təxirə salına bilər. Hakimiyyətin koronavirusu əsas gətirərək referendumu ləğv etməsi də müzakirə mövzusuna çevrilib. Erməni siyasi ekspertlər koronavirusun Paşinyan üçün şans ola biləcəyini bildiriblər. Onlar 5 apreldə seçki məntəqələrinə elə də çox adamın gəlməyəcəyini düşündüklərinə görə referendumun Paşinyan üçün uğursuz olacağını vurğulayırlar. Məsələ ondadır ki, Paşinyan referendumun doğura biləcəyi mənfi nəticələrdən narahatdır. Bu günlərdə təbliğat kampaniyası apararkən Ermənistan vətəndaşlarından biri media qarşısında Paşinyanın verdiyi bukleti cırıb yerə atdı. Bundan başqa, Paşinyan martın 16-da koronavirusla bağlı ölkədə fövqəladə vəziyyətin elan olunacağını istisna etməyib. O bildirib ki, hökumətin fövqəladə iclası keçiriləcək və bu iclas zamanı epidemiya ilə bağlı vəziyyət müzakirə olunacaq: "Biz mövcud vəziyyəti müzakirə edib önəmli qərarlar qəbul etməliyik".

Paşinyan bildirib ki, heç bir siyasi məqsəd ictimai təhlükəsizlik və sağlamlıq səviyyəsindən yüksək ola bilməz. O, bir növ, işarə edib ki, vəziyyət tələb edərsə, referendum təxirə salına bilər. Görünən odur ki, Paşinyan nəticələrinin mənfi olacağını bildiyindən, koronavirus təhlükəsini bəhanə edib referendumu təxirə salmaq və bununla özünü siyasi iflasdan xilas etmək istəyir.

*"Bu olmasa, o zaman başqa bir şey uyduracaq"*

Məsələyə münasibət bildirən Siyasi İnnovasiyalar və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, Paşinyan öz maraqları naminə referendumun vaxtını dəyişə bilər: "Çünki Paşinyan nəyə desən gedər. Bu da təsadüfi deyil. Ona görə ki, Paşinyan ruhi xəstədir. Neçə vaxtdır Paşinyan təbliğat aparır ki, Konstitusiya Məhkəməsinin köhnə olması səbəbindən ölkə əhalisinin həyat səviyyəsi yaxşılaşmır. Guya sözügedən referendumun keçirilməsi ölkədə bir sıra məsələlərin düzəlməsinə səbəb olacaq. O cümlədən, iqtisadi vəziyyət yaxşılaşacaq. Hansı ki, referendumun keçirilməsinin buna heç bir dəxli yoxdur. Çünki Ermənistanın sosial-iqtisadi baxımdan inkişafı üçün heç bir potensial yoxdur.

Digər tərəfdən, Paşinyan ictimai rəyin referenduma qarşı olduğunun fərqindədir. O üzdən, bunun mənfi nəticələrini önləməkdən ötrü Paşinyan koronavirusu bəhanə edib referendumun keçirilmə vaxtını dəyişə bilər. Bu versiya istisna deyil. Bu olmasa, o zaman Paşinyan başqa bir şey uyduracaq. Çalışar ki, nəsə bir şey tapsın. Görünən odur ki, bu adam bəhanə axtarır və reallığı görmək istəmir. Ona görə də istənilən şou xarakterli addımlar atır. Bir sözlə, bu adam heç bir qanuna hörmət etmək istəmir, nə ölkə qanunlarına, nə də beynəlxalq qanunlara".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Bakı-Ankara birliyindən İrəvana növbəti zərbə...

**İşğalçı Ermənistanın dövlət sərhədində və cəbhəboyu ərazilərdə təxribatlarını davam etdirməsi bu ölkənin Dağlıq Qarabağ münaqişəsini dinc müstəvidə həll etməkdə hələ də maraqlı olmadığını bir daha nümayiş entdirir. Təbii ki, bu vəziyyətdə münaqişənin hərbi həll ehtimadı daha da artır.**

Elə Azərbaycan ordusunun son təlimləri ətrafında hələ də geniş müzakirə aparan erməni tərəfi bunu yeni savaşa hazırlıq kimi qiymətləndirir.

Xatırladaq ki, təlimlər martın ilk ongünlüyündə keçirilib. Ermənistanda hesab edilir ki, bunlar Azərbaycanın aktiv döyüş hazırlığına daha bir işarədir. Rusiyalı hərbi ekspert Pavel Felqenhauer qeyd edir ki, əslində, erməni tərəfinin qorxmasına əsaslar heç də az deyil: "Düzdür, hərbi təlimlər planlı xarakter daşıyırdı, yəni konkret olaraq hərbi təhlükə ehtiva etmirdi. Lakin bunlar silahlı qüvvələrin döyüş qabiliyyətini artırmaq və silahlı qüvvələri yeni səviyyəyə qaldırmaqla yanaşı, rəqibə təsir göstərmək məqsədilə güc nümayişi üçün düşünülüb". Erməni politoloq Andranik Tevanyan isə bildirir ki, İrəvan döyüş meydanında təkdir və belə vəziyyətdə Bakı ilə Ankaranın daha da yaxınlaşması Ermənistan üçün böyük təhdiddir. Onun sözlərinə görə, Türkiyə və Azərbaycanda beziləri düşünür ki, aprel döyüşləri daha böyük həcmdə təkrarlanmalıdır: "Çünki Rusiya Qarabağın təhlükəsizliyi sisteminə birbaşa cəlb olunmayıb, bu, zəif halqadır. Qarabağdan fərqli olaraq, Rusiyanın Suriyada nüfuzu var. Deməli, yeni Qarabağ savaşı başlasa, Rusiya prosesə təsir edə bilməyəcək. Bu isə Azərbaycanın lehinə işləyən mühüm amillərdən biridir".

Digər rusiyalı hərbi ekspert Aleksandr Xramçixin isə diqqətə çatdırır ki, əslində, Rusiya hətta Ermənistandakı 102-ci baza vasitəsilə İrəvana kömək etmək istəsə belə, bu, yeni Qarabağ savaşında Azərbaycanı durdurmaq iqtidarında deyil:"Həm də nəzərə almaq lazımdır ki, 102-ci baza Ermənistan ordusu ilə bir qruplaşmada birləşməyib, amma onlar arasında sıx koordinasiya var, eləcə də onlar mütəmadi olaraq müştərək təlimlər keçirirlər. Digər tərəfdən, Rusiya hərbi bazasının vəziyyəti geosiyasi xarakter baxımından çox çətindir. Məsələ burasındadır ki, Ermənistan Rusiyadan Moskvaya düşmən olan Gürcüstan vasitəsilə ayrılıb, Azərbaycanla isə onun özünün düşmənçilik münasibətləri var. Bununla belə, Azərbaycan ordusunun potensialı hazırda Ermənistan, 102-ci baza və Qarabağdakı qoşunların ümumi potensialından daha yüksəkdir. Üstəlik, Türkiyə ordusunun Azərbaycanla müttəfiqliyi və Ermənistanla düşmənçiliyi Rusiya-Ermənistan qoşunları üzərində üstünlüyü təmin etməyə kifayət edir. Belə coğrafi təcrid ucbatından müharibə zamanı Rusiya 102-ci baza və erməni ordusunun təchizatını yalnız Xəzər dənizi və İran üzərindən dövrə vurmaqla təmin edəcək ki, bu da çox uzun, bahalı və etibarsız yoldur.

Ona görə də indiki halda 102-ci bazanın hərbi yox, siyasi əhəmiyyəti var. O, Türkiyə ilə sərhəddə yerləşib. O da faktdır ki, Ermənistana müdaxilə edilməzsə, Rusiya Azərbaycanla müharibəyə daxil olmayacaq. Beləliklə, 102-ci baza Ermənistanın özünün mövcudluğunun qarantıdır. Yəni Rusiyaya bu baza geosiyasi ambisiyaların gerçəkləşdirilməsi, Ermənistana isə sağ qalması üçün lazımdır. İrəvan bunu anlayır, ona görə də bu bazanın ərazisində olması üçün ödəniş edir. 102-ci bazanın Ermənistanda uzunmüddətli saxlanması perspektivlərini söyləmək çətindir, amma bir seyi dəqiq demək olar ki, bu bazanın çıxarılması Ermənistan üçün intihar olar".

Ekspert bu durumda Ermənistanın çətin vəziyyətdə olduğunu söyləyir və Qarabağ münaqişəsinin dinc müstəvidə həllini vacib sayır. Qeyd edir ki, yaranmış vəziyyətdə yeni savaş Ermənistan üçün böyük problemlər yarada bilər. Eyni zamanda indiki geosiyasi şəraitdə Türkiyənin Azərbaycana yardımı və digər müstəvidə atdığı addımları da İrəvan haqsısa formada neytrallaşdıra bilməz. Yeri gəlmişkən qeyd edək ki, əslində, cari ildə Azərbaycan və Türkiyə Ermənistanın qorxusunu artıracaq növbəti addım atmağa hazırlaşır. Bunun ilkin anonslarını müdafiə naziri, general-polkovnik Zakir Həsənov artıq verib. Belə ki, Zakir Həsənov bu ayın əvvəlində Azərbaycan ordusunda keçirilmiş genişmiqyaslı komanda-qərargah təlimlərinin nəticələri barədə xidməti müşavirədə çıxışı zamanı Azərbaycanın Türkiyə istehsalı olan müasir silah, hərbi texnika və avadanlıq alacağını bildirib. Nazir qeyd edib ki, Türkiyə Silahlı Qüvvələrinin döyüş təcrübəsini öyrənərək ordumuzun hazırlıq planına daxil edilməsi, ikitərəfli hərbi əməkdaşlıq çərçivəsində qarşılıqlı təcrübə mübadiləsi, Türkiyə istehsalı olan müasir silah, hərbi texnika və avadanlığın alınması bundan sonra da davam etdiriləcək.

Xatırladaq ki, Türkiyə ordusu son dövrlərdə Suriyanın şimalında, xüsusən də İdlib əyalətində uğurlu əməliyyatlar keçirib. Bu zaman Türkiyənin pilotsuz aparatlardan kütləvi istifadə etməklə endirdiyi zərbələr indi bütün dünya miqyasında müzakirə olunur. Məhz bu zərbələr Bəşər Əsəd ordusunun idlibdə çoxsaylı zirehli texnika və canlı qüvvə itirməsi ilə nəticələndi. İndi Azərbaycan tərəfi də bu təcrübəni daha geniş şəkildə öyrənib mümkün Qarabağ savaşında tətbiq etməyi düşünür. Qeyd edək ki, bundan əvvəl də Türkiyəyə rəsmi səfəri çərçivəsində Zakir Həsənov pilotsuz uçuş aparatları istehsal edən "Baykar Makina" şirkətində olub. Müdafiə naziri müəssisənin rəhbərliyi ilə görüşərək, hərbi-texniki əməkdaşlıq məsələlərini müzakirə edib və şirkət tərəfindən istehsal olunan hərbi təyinatlı döyüş vasitələrinə baxış keçirib. Elə o vaxtdan qardaş ölkənin pilotsuz uçuş aparatları Azərbaycanın diqqət mərkəzindədir. Ekspertlər isə bu fonda xatırladır ki, Azərbaycan özü də pilotsuz uçan aparatların geniş çeşidi ilə silahlanan, bu aparatları döyüşdə tətbiq edən ilk ölkələrdən biridir. 2016-cı ilin aprel döyüşləri zamanı Azərbaycan ordusunun Qarabağda düşmənə pilotsuz aparatlar vasitəsilə endirdiyi zərbələr də bunun təsdiqidir. Amma ermənləri indi narahat edən daha bir məqam Azərbaycan ordusunun arsenalını Türkiyənin milli istehsalı olan pilotsuz zərbə təyyarələri və kamikadzedronları ilə də gücləndirə biləcəyidir. Söhbət ilk olaraq süni intellektlə idarə edilən və avtonom rejimdə yüzlərlə kilometr məsafəyə uçub 1300 kiloqramdan çox faydalı yük daşıyan "Akıncı" dronlarından, radioelektron mübarizə sistemlərinə qarşı dayanıqlı, süni intellektlə idarə edilən kvadrakopter tipli kamikadze-dronları olan "Anka" və "Kargu"dan gedir. Bu silahların Türkiyə tərəfindən Azərbaycana satılmasında heç bir problem yoxdur. Elə erməniləri də narahat edən məhz bu məqamlardır. Çünki Azərbaycan ordusunun öz arsenalını Türkiyə milli hərbi sənayesinin istehsalı olan pilotsuz döyüş sistemləri ilə genişləndirməsi Qarabağda müharibə zamanı müqayisəolunmaz üstünlük yaradacaq. Həmin silahların alınması ilə bağlı prosesin getdiyini isə Zakir Həsənov yuxarıda qeyd olunan açıqlaması ilə bir daha təsdiq etdi. Elə erməni eksperti Vitali Manqasaryan da bundan əvvəl bildirib ki, Qarabağda vəziyyət gərginləşəcəyi təqdirdə Azərbaycan müasir türk hücum dronlarından Ermənistan ordusuna qarşı istifadə edəcək. Bunlar Türkiyənin Suriyadakı rəqiblərini məhv edən pilotsuz təyyarələrdir.

Ümumiyyətlə, Suriyadakı döyüşlərdə bütün dünya gördü ki, Türkiyə dronlardan çox uğurla istifadə edir. Baş verənlər həm də onu təsdiq edir ki, dronların hərbi əməliyyatlarda rolu artmaqdadır. Çünki dronlar nəinki dəqiq zərbələr endirə, hətta bir tondan artıq yük apara bilir. Dronlardan istifadənin daha bir üstünlüyü ondan ibarətdir ki, bu, insan itkisinin də qarşısını alır. Bu mənada, Türkiyənin dronlarla bağlı təcrübəsi Azərbaycan üçün də olduqca önəmlidir. Azərbaycan, yuxarıda qeyd olunduğu kimi, Türkiyə silahlarına, o cümlədən də dronlara maraq göstərir. Bakı baş verənləri diqqətlə izləyir və müvafiq təhlillər aparır. Amma əsas nəticə budur ki, dronlardan istifadə zəruri və faydalıdır. Bu fonda cari ildə gözlənir ki, Azərbaycan Türkiyədən dronların böyük bir partiyasını alacaq. Xatırladaq ki, cari ildə hərbi texnikanın alışı məqsədilə Azərbaycan 1 milyard dollar vəsait ayırmağı planlaşdırır. Bu vəsaitin müəyyən hissəsinin məhz dron alışına sərf olunması istisnalıq təşkil etmir. Özü də nəzərə alınmalıdır ki, Azərbaycanın Türkiyədən silah almasında heç bir problem yoxdur.

Ermənistana gəlincə, düşmən belə imkanlardan məhrumdur. Ölkənin həm xarici hərbi tərəfdaşları azdır, həm də maliyyə imkanları məhduddur. Məhz bu durumda Azərbaycanın dron məsələsində də düşmən üzərində böyük üstünlük əldə etməsi qaçılmaz sayılır və erməni tərəfi elə bundan getdikcə daha çox narahat olur. Erməni şərhçi Armen Kareyan bu xüsusda bildirir:"Yəqin ki, biz yaxın tezlikdə Azərbaycan ordusunun ixtiyarında Türkiyə istehsalı olan döyüş dronlarını görəcəyik. Bu, Azərbaycan tərəfinə əlavə üstünlüklər qazandıracaq. Bakı bununla hərbi üstünlüyünü daha da artıracaq. Məsələyə Rusiyanın da münasibəti maraqlıdır. Hazırda Qarabağ məsələsi Rusiya-Türkiyə münasibətləri kontekstində Ankaranı çox maraqlandırır, çünki Ankara bunu Rusiya ilə danışıqlar üçün real resurs hesab edir. Belə vəziyyətdə Azərbaycan ordusuna yeni silahlar satmaqla da Ankara mövqeyini gücləndirməyi düşünür".

Hər halda, baş verənlər ermənilərin ciddi təşviş içində olduğunu aydın nümayiş etdirir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Manatını dollara dəyişənlər peşman olacaq - Tramp dolları kəskin ucuzlaşdırdı...

**Dollarla bağlı son günlərdə ABŞ-da baş verənlər bu valyutanın dünya miqyasında ucuzlaşmasında elə amerikalıların özlərinin xüsusi maraqlı tərəf kimi çıxış etdiyini nümayiş etdirir. Bu barədə danışmazdan öncə xatırladaq ki, ABŞ-ın Mərkəzi Bankı səlahiyyətlərini icra edən Federal Ehtiyat Sistemi (FES) koronavirus səbəbindən yarana biləcək risqlərlə mübarizə üçün baza faiz dərəcəsini, demək olar, sıfıra endirib.**

Açıq Bazarlarda Əməliyyat üzrə Federal Komitənin yaydığı bu barədə açıqlamada bildirilir: "Koronavirusun fəsadları qısa müddətdə iqtisadi fəallığa təsir göstərəcək və bu, iqtisadi perspektivlər üçün təhlükə yaradır. Hadisələrin belə inkişaf etməsi fonunda komitə federal fond dərəcəsinin hədəf səviyyəsini 0-0,25%-ə endirmək qərarına gəlib".

Federal Ehtiyat Sisteminin qərarına münasibət bildirən ABŞ prezidenti Tramp bu addımı alqışlayıb: "Mən bu qərarına görə Federal Ehtiyat Sistemini təbrik edirəm. Bu, ölkəmiz üçün çox gözəl qərardır". Federal Ehtiyat Sistemi bundan əvvəl martın 3-də də uçot dərəcəsinə baxıb. Həmin vaxt FED uçot dərəcəsini 0,5% bəndi azaldıb və 1-1,25% səviyyəsində saxlayıb. İndi isə Federal Ehtiyat Sistemi bunun ardınca daha kəskin faiz endiriminə gedib və bu addımın da əsas məqsədi dolların ucuzlaşmasına nail olmaqdır. Ekspertlər bildirir ki, belə gedişlə Federal Ehtiyat Sistemi hətta mənfi faiz dərəcəsinə keçə bilər. Hazırda Yaponiya, İsveç, İsveçrə kimi böyük iqtisadiyyata sahib ölkələrdə mənfi faiz dərəcəsi tətbiq edilir. Avropa Mərkəzi Bankı da avro üçün eyni siyasəti tətbiq edir. Məhz bu fonda ABŞ da dolları ucuzlaşdırmaq üçün mənfi faiz dərəcəsinə keçə bilər. Xatırladaq ki, 2008-2009-cu illərdə qlobal maliyyə böhranı ilə əlaqədar olaraq FES mənfi faiz dərəcəsi tətbiq edib. Həmin dövrdə ipoteka kreditləşməsində yol verilən ciddi səhvlər səbəbindən ölkə iqtisadiyyatı dərin böhran keçirirdi. İqtisadiyyatın bu böhrandan çıxarılmasının ucuz pul siyasətindən asılı olduğunu görən FES mənfi faiz dərəcəsinin tətbiqinə başladı. O vaxt Barak Obama da prezident seçiləndə qeyd etdi ki, böhrandan çıxmaq üçün iqtisadiyyata külli miqdarda ucuz pul vermək lazımdır. Bundan sonra FES pul emissiya edib, iqtisadiyyata ucuz pul verdi. Bunun üçün də məhz mənfi faiz dərəcələri tətbiq etdilməsinə başlandı. Bu addım eyni zamanda dolların dünya miyqasında kəskin şəkildə ucuzlaşması ilə müşayiət olundu. Bu fonda 2015-ci ilə qədər ABŞ iqtisadiyyatının böhrandan çıxarılması üçün tədbirlər davam etdirildi. Həmin ildən isə faiz dərəcəsi tədricən qaldırıldı. 2017-ci ildən FES-in dolları möhkəmləndirən siyasətinə tənqidi yanaşmalar gücləndi. Çünki yaranmış vəziyyətdə ABŞ ixracda çətkinlik çəkməyə başlayırdı. Bu isə Tramp hökumətini qane etmirdi və hökumət faiz dərəcələrini aşağı salmaq üçün FES-ə təzyiqləri artırırdı. Elə bu səbəbdən faizlərin artırılması siyasəti 2018-ci ilin dekabrından dayandırıldı və faizlər o vaxtdan tədricən endirilir. Yalnız 2019-cu ildə 2 dəfə faizlərin endirilməsinə dair qərar qəbul edilib. Cari ildə artıq üçüncü dəfədir belə addım atılır. Amma ekspertlər bildirr k, bu da son deyil və yaxın tezlikdə artıq mənfi faiz dərəcələri tətbiq edilə bilər. Yəni FES-in faizləri endirmək siyasəti davamlı xarakter daşıyacaq. Ekspertlərin fikrincə, faizlərin endirilməsi dolların ucuzlaşmasını qaçılmaz edəcək. Yəni bu vəziyyətdə dollar digər valyutalar qarşısında məzənnə dəyəri itirəcək. Ekspertlər manata münasibətdə dolların ucuzlaşmasını da bu halda qaçılmaz sayır. Yəni Mərkəzi Bank prosesə müdaxilə etməsə, dollar mütləq dəyər itirəcək. Bundan ən çox uduzanlar isə yeni devalvasiya təhlükəsindən qorxub əllərində olan manatı dollara çevirənlər olacaq. Halbuki, yuxarıda qeyd edilən amillər də ölkədə devalvasiya təhdidinin olmadığını aydın göstərir. Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov da vurğulayır ki, devalvasiya ilə bağlı qorxu yoxdur və bu məsələ müzakirə belə olunmur. Baş bankirin sözlərinə görə, banklarda kifayət qədər valyuta var və Mərkəzi Bank hər gün bu valyutanı kifayət qədər artırır:"Hər gün xərclənən pullar kompensasiya edilir. Bank sektoru bu gün kifayət qədər dayanıqlıdır".

E.Rüstəmovun sözlərinə görə, hökumətin "B planı"nda bütün alternativ çağırışlara cavab var: "Neftin istənilən qiymətinə, istənilən çağırışa cavab verməyə hazırıq. Hesab edirəm və ümumi fikir də bundan ibarətdir ki, bizim hər hansı emosional qərar qəbul etmədən situasiyanı tarazlaya bilmək üçün kifayət qədər başqa potensialımız var. Yeni inflyasiyanı qaldırmadan, bütövlükdə həyata keçirilmiş və əldə olunmuş maddi-sosial rifah halını qorumaqla, maliyyə sektoru üçün əlavə problemlər yaratmadan situasiyanı tənzimləmək üçün kifayət qədər imkanlar var. Mən bundan əvvəl də dedim ki, hökumətin alternativ - "B planı" var və bu planda bütövlükdə ssenari və onun necə tənzimlənməsi də mövcuddur".




Məlumat üçün bildirək ki, ölkənin ehtiyatları, xarici valyuta ehtiyatları hazırda ən yüksək həddədir. Ümumimilikdə bu ehtiyatlar 52 milyard dolları üstələyir. Halbuki, dövriyyədə və əllərdə olan manat həcmi cəmi 18 milyarddır. Elə bu rəqəmlərin özləri də devalvasiya təhdidinin Azərbaycandan çox uzaq olduğunu nümayiş etdirir. Çünki Azərbaycanın ehtiyatları kifayət qədərdir ki, istənilən böhrana davamlılıq nümayiş etdirə bilsin, fəsadların qarşısını tezliklə alsın.

***Ramil TAĞIYEV***

# Prezident bəzi icra məmurlarının nazir Sahil Babayevə qarşı təxribatlar etməsinin mahiyyətini açdı - işdə bəzi mətbuat orqanlarının da əli var imiş...

**Prezident İlham Əliyev Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevi qəbul edib, sosial sahədə mövcud vəziyyətlə bağlı nazirdən hesabat alıb və öz fikirlərini bildirib:**

- Sosial sahədə aparılan islahatlar bu il davam etdirilir. Bu islahatlar çox genişmiqyaslı islahatlardır və nəticə etibarilə Azərbaycan vətəndaşlarının rifah halının yaxşılaşdırılması istiqamətində atılan önəmli addımlardır. Xüsusilə keçən il 4 milyondan artıq Azərbaycan vətəndaşının maddi rifahı yaxşılaşdırıldı, çox böyük sosial paket icra edildi. Bu bir daha onu göstərir ki, Azərbaycan hökuməti daim öz vətəndaşının yanındadır və maddi imkanları hələ də məhdud olan vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması diqqət mərkəzindədir.

Bu il bu istiqamətdə növbəti addımlar atılır və atılacaq. Pensiyaların artırılması təmin edildi.

**Göstəriş vermişdim ki, dövlət dəstəyinə ehtiyacı olan bütün vətəndaşlar…**

-Pensiya təminatının alıcılıq qabiliyyətinə görə Azərbaycanın MDB məkanında birinci yerdə olması, hesab edirəm ki, böyük nailiyyətdir. Əlbəttə, iqtisadi imkanlarımız genişləndikcə biz bu vəsaiti, ilk növbədə, sosial məsələlərin həllinə yönəldəcəyik.

Ünvanlı sosial yardımla bağlı sizə göstəriş vermişdim ki, onun əhatə dairəsi genişləndirilsin. Son müddət ərzində iqtisadi sahədə canlanma var, iqtisadi artım təmin edilir, o cümlədən sənaye istehsalında, - qeyri-neft sektorunda sənaye istehsalı təqribən 15 faizə yaxın artıbdır, - yeni iş yerləri yaradılır, vətəndaşlar üçün yeni imkanlar açılır. Ancaq buna baxmayaraq, mən göstəriş vermişdim ki, hələ də dövlət dəstəyinə ehtiyacı olan vətəndaşların dövlət təminatı təmin edilsin və bu vətəndaşların sayı artırılsın.

**Hər ailə 215 manat əlavə alacaqsa…**

-Hər ailə dövlətdən 215 manat alacaqsa, əlbəttə ki, bu ailələrin sosial təminatı daha da yaxşı olacaq.

İlin əvvəlində mən göstəriş vermişdim ki, bu il şəhid ailələri və müharibə veteranları üçün daha çox sayda evlər tikilsin. Biz bu vətəndaşların sosial təminatını ildən-ilə yaxşılaşdırırıq. Keçən il 934 ailəyə ev verilib. Mən göstəriş vermişdim ki, biz bu həcmi artıraq və bu il 1500 ailə üçün evlərin təqdimatı nəzərdə tutulur.

**Mal-qara ilə təmin olunan bəzi vətəndaşlar həmin mal-qaranı bazarda satır…**

-Özünüməşğulluq proqramı ilə bağlı hansı işlər görülür? Mən göstəriş vermişəm ki, bu proqramın əhatə dairəsi genişləndirilsin. Eyni zamanda, biz Dünya Bankını bu məsələyə cəlb etdik. Mənim Dünya Bankının icraçı direktoru ilə Davosda keçirdiyim görüşdə bu məsələ müzakirə olundu. Dünya Bankı bizə həm maliyyə dəstəyi göstərəcəkdir, eyni zamanda, məsləhət xidmətlərini təmin edəcəkdir.



Siz mənə məruzə etmişdiniz ki, tələbat kifayət qədər böyükdür. Təqribən 50 minə yaxın müraciət olubdur. Mən göstəriş vermişdim ki, bu il ən azı 10 min insan bu proqramla əhatə olunsun. Proqramla əhatə olunma istiqamətində, əlbəttə ki, nazirlik tərəfindən meyarlar işlənilib, təmin edilib, vətəndaşlar treninqlərdən keçiblər. Ancaq əsas məsələ ondadır ki, vətəndaşları bu işə cəlb edəndən sonra özünüməşğulluqla bağlı monitorinq keçirilsin. Çünki dünya praktikasında özünüməşğulluq proqramı ilə əhatə olunan cəmi vətəndaşların təqribən 50 faizi bu imkandan səmərəli şəkildə istifadə edə bilir. Məsələn, elə hallar var ki, rayon və kənd yerlərində mal-qara ilə təmin olunan vətəndaşların bəziləri o mal-qaranı aparıb bazarda satır və beləliklə məsuliyyətsizlik göstərirlər. Halbuki, bu işdə əsas məqsəd ondan ibarətdir ki, vətəndaşlar verilən vasitələrlə öz dolanışıqlarını sonra özləri təmin etsinlər. Əgər vətəndaşlar dövlət tərəfindən verilən vəsaitə belə yanaşacaqlarsa, bu dözülməzdir. Bu vətəndaşlara ikinci dəfə heç bir dəstək göstərilməməlidir, o cümlədən onlar ünvanlı sosial yardımdan da məhrum edilməlidir. Ona görə ki, dövlət öz xoş niyyətini göstərir. Ancaq vətəndaşlar da buna məsuliyyətlə yanaşmalıdırlar. Özünüməşğulluq proqramı ilə əhatə olunmaq istəyənlərin sayı kifayət qədər çoxdur və kriteriyalar əsasında onların arasında seçim edilir. Əgər bu proqrama düşən vətəndaşlar özlərini belə aparacaqlarsa, əlbəttə ki, çox ciddi tədbirlər görülməlidir. Bu il bu istiqamətdə hansı işlər görülüb və ilin sonuna qədər hansı işlər görüləcəkdir?

**…insanları istismar edirlər…**

- Qeyri-formal məşğulluqla bağlı mənim müvafiq göstərişlərim yerinə yetirilir. Mənə müntəzəm olaraq bu məsələ ilə bağlı məruzələr edilir. Mənə verilən məlumata görə, son müddət ərzində 300 mindən çox işçi ilə əmək müqaviləsi bağlanmışdır. Yəni, bu işlər rəsmiləşdirilmişdir. Burada, əlbəttə ki, çox ciddi monitorinq tədbirləri keçirilməlidir. Bu, məsələ ilə bağlı sizə müvafiq göstərişlər verilmişdir. Eyni zamanda, sistem xarakterli, institusional tədbirlər də nəzərdə tutulur ki, qeyri-rəsmi məşğulluğun əhatə dairəsi daralsın. Əlbəttə ki, burada maarifləndirmə də xüsusi rol oynayır. Mən də bir neçə dəfə vətəndaşlara müraciət edərək demişdim ki, əgər hansısa sahibkar onlara bu formada işləmək təklif edirsə, buna razı olmasınlar, dərhal müvafiq yerli və mərkəzi icra orqanlarını məlumatlandırsınlar. Çünki əgər qeyri-rəsmi işləyəcəklərsə, sabah onların nə pensiyası, nə də sosial sığortası olacaq, xüsusilə nəzərə alsaq ki, bu ildən başlayaraq ölkə ərazisində icbari tibbi sığorta sistemi mərhələli şəkildə tətbiq olunur. Mənə verilən məlumata görə, həm pilot şəhərlərdə, həm də bu il başlanmış bu işə əhali tərəfindən çox böyük dəstək, böyük maraq var. Ona görə belə təkliflərdən vətəndaşlar özləri imtina etməlidirlər. Amma bəzi hallarda çarəsiz qalırlar. Bəzi hallarda məcbur olub sahibkarların qanunsuz təkliflərinə razılıq verir, qeyri-formal işləyirlər.

Ona görə maarifləndirmə işləri daha geniş vüsət almalıdır. Rəsmiyyətə düşməyən işçiləri işlədən sahibkarlara qarşı ciddi sanksiyalar, cərimələr tətbiq edilməlidir. Eyni zamanda, göstəriş vermişəm ki, Azərbaycanda heç kim səkkiz saatdan çox işləməməlidir.

*(Ardı 9-cu səh.)*

(Əvvəli 8-ci səh.)

Çünki insanları istismar edirlər. Onlar da çarəsiz qalıb, məcbur olub buna razılıq verirlər. Ona görə vətəndaşlarla nazirlik arasında çox fəal canlı bağlantı olmalıdır. Siz həm öz imkanlarınızdan istifadə edərək monitorinqlər aparmalısınız, eyni zamanda, Qaynar xətlər, yaxud da digər əlaqə vasitələrilə vətəndaşlarla daim təmasda olmalısınız. Bilirəm ki, bu istiqamətdə işlər aparılır. Bilmək istərdim ki, o işlər nə yerdədir.

**...bəyənmə əmsalı 95 faiz...**

-Bu il də DOST mərkəzlərinin tikilməsi nəzərdə tutulur. Keçən il biz iki mərkəzin açılışını etdik. Mən şəxsən açılışlarda iştirak etmişəm. Bu mərkəzlərdən biri keçən ilin may ayından fəaliyyətdədir. Bu proqram doğrudan da bu sahədə dönüş nöqtəsi oldu. Hesab edirəm ki, bu sahədə göstərilən xidmətlərin təkmilləşdirilməsi inqilabi xarakter daşıyır. Təbii ki, vətəndaşların məmnunluğu da yüksək səviyyədədir. Ona görə mən soruşdum ki, bəyənmə əmsalı hansı səviyyədədir - 95 faiz, əlbəttə ki, yeni yaradılmış xidmət üçün çox yüksək nəticədir. Hesab edirəm ki, gələcəkdə bu mərkəzlərin həm regional xarakter daşıması, eyni zamanda, funksiyaların, xidmətlərin artırılması, vətəndaşlara göstərilən xidmətlərin səviyyəsi, səmərəsi daha da yüksələcək. Beləliklə, Azərbaycan bu sahədə də öz intellektual məhsulu ilə fərqlənəcək. Necə ki, bu gün "ASAN xidmət" mərkəzləri bizim intellektual brendimizdir və artıq digər ölkələr bu təcrübədən yararlanırlar, hesab edirəm ki, vaxt gələcək digər ölkələr də DOST mərkəzlərində göstərilən xidmətləri əsas götürərək belə sistemin yaradılmasına nail olacaqlar. Biz də istənilən tərəfdaşla bu istiqamətdə işləməyə hazırıq. Əgər sizə bu məsələ ilə bağlı hansı ölkələrdən müraciət olunarsa, əlbəttə ki, məsləhətləşmə əsasında müvafiq məlumatları verə bilərsiniz.

**İcra başçısı 73 nəfəri öz qapısında qul kimi işlədib…**

Bir məsələ də çox ciddi xarakter daşıyır. Neftin qiymətinin kəskin düşməsi nəticəsində, təbii ki, biz dövlət investisiyalarını kəskin ixtisar etdik. Bunun nəticəsində işsizliyin səviyyəsi artmışdır. Bu da təbiidir. Çünki işsizliyi aşağı səviyyədə saxlamaq üçün dövlət bütün mexanizmlərdən istifadə edir. Əgər biz görsək ki, özəl sektorda haradasa işlər ixtisar olunur, əlbəttə, mənim göstərişimlə dövlət dərhal öz sözünü deməlidir. 2015-2016-cı illərdən başlayaraq mənim tapşırığımla ödənişli ictimai işlər yaradılmışdır. Bu işlərin yaradılmasının əsas səbəbi işsiz qalan vətəndaşları işlə təmin etməkdir. Mənim göstərişimlə bu proqramla əhatə olunan vətəndaşların sayı ildən-ilə artaraq, son məlumata görə, 38 min ödənişli iş yeri yaradılmalı idi. Bu məqsədlər üçün dövlət büdcəsində 10 milyonlarla manat vəsait nəzərdə tutulur. Göstəriş vermişdim ki, bu məsələyə çox ciddi nəzarət olunsun. Xüsusilə bölgələrdən gələn siqnallar bu nəzarətin tətbiqinə, əlbəttə ki, imkan yaratmışdı. Çünki bəzi hallarda insanların əməkhaqları verilmirdi, ödəniş kartları icra başçıları tərəfindən qanunsuz olaraq götürülürdü, mənimsənilirdi və s. Belə siqnallar ciddi şəkildə araşdırılmışdır. Bu və buna oxşar cinayətləri törədənlərə qarşı çox ciddi cəza tədbirləri tətbiq edildi. Mən bütün yerli icra orqanlarının nümayəndələrinə xəbərdarlıq etmişdim. İndi isə onların bir neçəsi məsuliyyətə cəlb edildi. Keçirilmiş xüsusi əməliyyatlar nəticəsində onların cinayətləri tam sübuta yetirildi. Əlbəttə ki, indi istintaq gedir, məhkəmə prosesi olacaqdır, ancaq videogörüntülər hər şeyi açıq-aydın göstərir. Bu biabırçı kadrlar, biabırçı davranış bizim üçün böyük ləkədir. Mən bu adamlara etibar etmişəm. Mən bu adamları vəzifəyə təyin etmişəm və vəzifəyə təyin edilərkən bir çox tapşırıqlar, tövsiyələr vermişəm. Onların arasında ən vacibi o idi ki, get təmiz işlə, rüşvət alma, vətəndaşlara kobudluq göstərmə, təkəbbürlü olma, vətəndaşlara dayaq ol, arxa ol, kəndləri gəz, bütün vətəndaşlarla ünsiyyətdə ol. Amma nəyi görürük? Onu görürük ki, bütün bu tapşırıqlara rəğmən, bəzi yaramaz icra başçıları həm özlərini, həm bizim iqtidarımızı biabır edibilər. Onların alçaq hərəkətləri ümumi qınaq obyektinə çevrilib. Onların dövlət mülkiyyətini talaması, sahibkarları incitməsi, sahibkarlardan pul alması, hər bir təyinata görə pul alması, məktəb direktorlarından, xəstəxanalardan aylıq haqq alması allahsızlıqdır və onlar bu cinayətlərə görə cavab verəcəklər. Biz işsiz qalan vətəndaşlar üçün şərait yaradırıq ki, onlar evinə çörək pulu aparsın. O da böyük məbləğ deyil, minimum əməkhaqqı səviyyəsindədir. İndi minimum əməkhaqqı artıb, ona görə bu vətəndaşlar daha böyük məbləğ alırlar. Amma bəzi hallarda bu pullar mənimsənilir. Yaxud da Neftçala rayonundakı cinayətkarlıq hadisəsi barədə mənə məlumat verildi ki, ödənişli işlə təmin edilən 73 nəfəri öz təsərrüfatlarında qul kimi, nökər kimi işlədirdi. Bu nədir? Ağadır, bəydir, xandır? İndi bütün ölkə ona nifrət edir, onun və onun kimilərin biabırçı hərəkətlərinə görə. Hamı bilsin ki, məsələ bununla bitməyəcək. Birinci hadisə oldu eşitmədilər, ikinci hadisə oldu eşitmədilər. Neçəsi həbs olunmalıdır ki, bunlar öz çirkin əməllərindən əl çəksinlər. Bu proses davam etdiriləcək və hamı üçün də dərs olmalıdır. Ona görə bu biabırçı hallarla bağlı daha ciddi addımlar atılacaq.

Mən sizə göstəriş vermişdim ki, sizin nazirlik çox ciddi monitorinq, uçot aparsın. Onu da bilirəm ki, siz bu uçotu tətbiq etməyə başlayanda yerli icra orqanları tərəfindən böyük müqavimətlə rastlaşdınız. Sizə qarşı təxribatlar törədildi, eyni zamanda, mətbuatda çirkin kampaniyalar aparıldı. Biz bu kampaniyanın sifarişçilərini də yaxşı tanıyırıq. Onların bizim aramızda yeri yoxdur. Ona görə nazirlik tərəfindən bütün bu işlər tam nəzarətə götürülməlidir.

---

# Yeni MM köhnə MM-in siyasi radikalizm proseslərinə yetərsiz münasibətindən nəticə çıxaracaqmı - Kursu Prezident müəyyənləşdirib

**"Radikalizmə qarşı mübarizə daha geniş aparılmalıdır. Parlamentin rolu burada vacibdir". Bunu Prezident İlham Əliyev Milli Məclisin ilk iclasındakı geniş çıxışında deyib. Ölkə başçısının fikrincə, əvvəlki parlamentin bu məsələyə münasibəti yetərli səviyyədə olmayıb:**

## *Fikrət Sadıqov: "Parlament həm yerli, həm də xarici müstəvidə radikalizmə qarşı mübarizədə fəal mövqe sərgiləməlidir"*



"Bununla bərabər, biz Azərbaycanı müasir, dünyəvi dövlət kimi gücləndirməliyik. Dünyəvilik prinsipləri daha geniş bərqərar olmalıdır. Radikalizmə qarşı mübarizə daha geniş aparılmalıdır. Parlamentin rolu burada vacibdir. Ancaq, sözün düzü, xatırlamıram ki, bu məsələ ilə bağlı əvvəlki dövrdə parlamentdə ciddi söhbət aparılsın. Biz aparmalıyıq. Heç bir bağlı mövzu olmamalıdır. Çünki bizim gələcəyimiz bundan asılıdır. Biz 20 il, 30 il, 50 il sonra hansı dövlətdə yaşamaq istəyirik. Biz bilirik və xalq da bilir. Amma bunu təmin etmək lazımdır. Əgər oturub nəyisə gözləyəcəyiksə, böyük problemlər yarana bilər. Ona görə biz bu sahədə də öz siyasətimizi təmin etməliyik, bizim siyasətimizin üstünlüyünü göstərməliyik və müqayisə etməliyik, çəkinmək lazım deyil. İstənilən tərəflə müqayisə etmək üçün kifayət qədər arqumentlərimiz var, təhlükəsizlik, əminamanlıq, inkişaf, sosial rifah, azadlıqlar. Ona görə parlament bu məsələlərlə ciddi məşğul olmalıdır".

Görünən odur ki, əvvəlki parlament radikalizmə qarşı mübarizədə yetərincə mövqe ortaya qoymayıb. Hansı ki, parlamentin bu məsələdə aktiv mövqe sərgiləməsi çox vacibdir. O baxımdan yeni parlamentin radikalizmə qarşı mübarizəsi nə formada olmalıdır? Bununla bağlı parlament gözləntilərdən nəticə çıxaracaqmı?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, parlament həm yerli, həm də xarici müstəvidə radikalizmə qarşı mübarizədə fəal mövqe sərgiləməlidir: "Parlament toplantılarında radikalizmlə mübarizə məsələləri daim diqqət mərkəzində olmalıdır. Radikalizmlə bağlı istənilən meyllərə, lazım gələrsə, Milli Məclis reaksiya verməlidir. Bununla bağlı qanunvericilik zamanın tələbinə uyğun olaraq təkmilləşdirilməlidir. Digər tərəfdən, xaricdə Azərbaycanı təmsil edən millət vəkilləri, ilk növbədə, ölkəmizin maraqlarına cavab verən fəaliyyətlə məşğul olmalıdırlar. Bu fəaliyyəti terrorizmə, ekstremizmə, radikalizmə qarşı mübarizədə ortaya qoymalıdırlar. Məsələ ondadır ki, Azərbaycana qarşı müxtəlif dairələr var. Təkcə ermənipərəst dairələr bizə qarşı fəaliyyət göstərmirlər. Eyni zamanda, radikalizmə yaxın siyasi qruplaşmalar Azərbaycana qarşıdır. Fikrimcə, parlament belə dairələrə qarşı seyrçi mövqedə qalmamalıdır. Fəal mövqe sərgiləməli və həmin dairələrin fəaliyyətini ifşa etməlidir. Millət vəkilləri bu kimi məsələlərdə aktiv mövqedən çıxış etməlidirlər. Azərbaycana qarşı görürsən ki, radikal dairələr müxtəlif siyasi bəyanatlar verirlər.

*"Millət vəkilləri bu kimi məsələlərdə aktiv mövqedən çıxış etməlidirlər"*

Hesab edirəm ki, parlament belə hallara qarşı adekvat fəaliyyət göstərməlidir. Bizə qarşı yönələn istənilən radikal məzmunlu siyasi təxribata cavab verilməlidir. Hesab edirəm ki, bu, parlament adından xaricə gedən nümayəndə heyətlərinin əsas vəzifəsinə çevrilməlidir. Həm şifahi, həm də yazılı formada təbliğat aparılmalıdır. Bir sözlə, parlament bütün mənalarda radikalizmlə mübarizədə fəal olmalıdır".

**Vidadi ORDAHALLI**

# Hindistanın Şimal-Cənub dəhlizi ilə daşımalarından Azərbaycan milyonlarla gəlir götürəcək

**Koronavirus təhdidi dünya iqtisadiyyatı üçün hələ də böyük təhlükə yaratmaqda davam edir. Baş verənlər artıq bir çox ölkələr arasında sərhədlərin bağlanması ilə müşayiət olunmaqdadır. Amma logistika və yükdaşımalara bunun ciddi təsir göstərmədiyi də özünü qabarıq şəkildə büruzə verir.**

Bu mənada, diqqət çəkən məqamlardan biri Azərbaycan üzərindən daşınan yüklərin həcminin artması istiqamətində görülən işlərdir.

Proseslərin inkişaf axarı göstərir ki, qarşıdakı günlər ərzində Hindistan yüklərinin daşınmasında da Azərbaycan müstəsna rol oynayacaq. Belə ki, bu günlərdə Hindistanın "Concor" nəqliyyat şirkəti ilə Rusiyanın Dövlət Dəmir Yollarına məxsus logistika şirkəti arasında yüklərin daşınmasında əməkdaşlıq haqqında müqavilə imzalanıb. Sənədin imzalanmasından sonra "Concor" şirkətinin baş direktoru Kalyan Rama bildirib ki, yaxın 3 ay ərzində İran və Azərbaycan vasitəsilə Hindistanın Rusiya ilə yükdaşımasının həcmi əhəmiyyətli dərəcədə artacaq. Şirkət rəhbəri onu da qeyd edib ki, əvvəlki marşrutla müqayisədə yüklərin İran və Azərbaycan ərazisindən daşınması vaxta və nəqliyyat xərclərinə qənaət edəcək. K.Rama dəqiq rəqəm səsləndirməsə də, vurğulayıb ki, bundan sonra Rusiya ilə Hindistan arasında olan yükdaşımalar məhz İran və Azərbaycan ərazisindən istifadə edilməklə həyata keçiriləcək.

K.Ramanın nəzərdə tutduğu marşrut isə "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizidir ki, bu dəhliz, məlum olduğu kimi, Azərbaycandan da keçir. Yüklərin Hindistandan Rusiyaya və əks istiqamətə daşınması İranın Çabahar dəniz limanı vasitəsilə reallaşacaq. Hindistanın bu limanın yenidən qurulması və yeni texniki avadanlıqlarla təchiz olunması üçün 2 milyard dollar vəsait ayırması da təsadüfi xarakter daşımır. Onu da xatırladaq ki, 2017-ci ildə Hindistanla İran arasında aparılan danışıqların nəticəsi olaraq Çabahar limanı Hindistan şirkətlərinin idarəçiliyinə verilib. Bunun müqabilində isə Hindistan limanın yenidən qurulması və texniki təchizatını yaxşılaşdırmaq üçün indiyə qədər atıq 500 milyon dollar sərmayə yatırıb. Daha 1,5 milyard dolların da yatırılması nəzərdə tutulur. Hindistanın İranın Çabahar limanına bu qədər diqqət ayırması heç də təsadüfi xarakter daşımır. "Times of India" qəzeti yazır ki, Hindistanın böyük ixrac potensialı var və inkişaf edən iqtisadiyyat üçün nəqliyyat probleminin həlli vacibdir. İqtisadi inkişafda idxal-ixrac əməliyyatlarının tez və təhlükəsiz həyata keçirilməsi əsas amillərdən biridir. Artıq bilindiyi kimi, Süveyş kanalı vasitəsilə Avropa ilə nəqliyyat əlaqəsi saxlamaq olduqca baha başa gəlməklə yanaşı, həm də çox vaxt aparır. Mütəxəssislərin hesablamalarına görə, Hindistan "Şimal-Cənub" dəhlizi ilə Avropaya yük göndərsə yükün hər tonunda 1200 dollar vəsaitə qənaət etmiş olacaq. Qeyd edək ki, bu zaman yüklər Hindistanın Mumbai limanından çıxaraq İranın Çabahar limanına, buradan isə Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu ilə Rusiyaya daşınacaq. Əks istiqamətdə də yüklər Rusiyadan Azərbaycanın İran ilə sərhədindəki Astara şəhərinə, buradan da dəmir yolu ilə Çabahar limanına, oradan isə Hindistanın Mumbai limanına daşınacaq. Göründüyü kimi, hər iki istiqamətdə yüklər Azərbaycan ərazisindən də keçəcək ki, bu da ölkəmizin büdcə gəlirlərinin artmasına əhəmiyyətli dərəcədə təkan verəcək. Amma məsələnin mahiyyəti həm də ondan ibarətdir ki, təkcə Rusiya ilə Hindistanın yox, ümumilikdə Avropa ilə Asiya qitəsi arasında iqtisadi əlaqələrin intensiv şəkildə inkişafına Azərbaycan getdikcə daha böyük töhfə verir. Belə vəziyyət həm də Azərbaycanın mövqeyini gücləndirir. Firdovsi adına Məşhəd Universitetinin professoru Ruhulla İslami qeyd edir ki, Çabahar limanı yalnız Hindistanın Rusiya və Avropa ilə deyil, həmçinin Pakistanın da Avropa ilə iqtisadi əlaqələrinin genişlənməsi üçün əhəmiyyətə malikdir. Limanın strateji mövqeyi onun mahiyyətini artırmaqla yanaşı, Cənub-Şərqi Asiyadakı bütün dövlətlərə Avropa ilə ticarət əlaqələri qurmaq imkanı verir. Bu isə onu deməyə əsas verir ki, Çabahar limanına daxil olan yüklər




yalnız Azərbaycan ərazisindən keçməklə dünya bazarına çıxarılacaq. Beləliklə, ölkəmizin logistika mərkəzinə çevrilməsinin ardınca siyasi əhəmiyyəti də artacaq.

**Hazırda Çabahar limanında böyükhəcmli işlər həyata keçirilir. Yüklərin transferi üçün texniki vasitələr quraşdırılıb və böyük yük gəmilərinin yan alması üçün yerlər tikilir. Artıq Hindistan Əfqanıstana və Orta Asiya respublikalarına yük daşımaları həyata keçirir. İndi isə Avropa ilə idxal-ixrac əməliyyatlarına başlanır və bu zaman Azərbaycan Hindistan üçün ön planda yer alır. Azərbaycan üzərindən daşınan yüklərin həcminin çoxalması dünya miqyasında ölkəmizə diqqəti əhəmiyyətli dərəcədə yüksəldir. Bu, həm də qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən iqtisadi islahatlar çərçivəsində ölkəmizdə geniş nəqliyyat infrastrukturunun yaradılmasının nə dərəcədə doğru addım olduğunu əyani göstərir.**

***Nahid SALAYEV***

# Ucuz maska və spirti yenidən defisitə çevirənlər - "ancaq 4 manatdan yuxarı maskalar var", apteklərdə daha nə eşidirik...

**Həlә koronavirus təhlükəsi ölkəmizin sərhədlərinə yetişmədiyi və yalnız Çində yayıldığı ilkin dövrdən etibarən Azərbaycan apteklərində tibbi maska və spirt qıtlığı meydana çıxmağa başladı. Paytaxt apteklərinin bir çoxunda tibbi maskaların defisit olması bir yana, qiymət artımı da baş verdi.**

*"Avromed" şirkətinin əməkdaşı isə "Siz telefon nömrənizi saxlayın, əməkdaşlarımız sizin sorğunuza bir azdan cavab verəcək" desə də...*

## ***Rəvanə Əliyeva:*** *"Apteklərin TƏBİB-ə aidiyyəti yoxdur"*

10 qəpiyə satılan maskanın qiyməti birdənbirə qalxıb 1 manat 10 qəpik oldu. Hətta iş o yerə çatdı ki, Prezident İlham Əliyev ölkədə qəsdən maska, spirt qıtlığı yaradan möhtəkirlərə sərt mesajlar verdi.

Bəli, hansısa möhtəkirlər, işbazlar koronavirusdan öz şəxsi bizneslərini genişləndirmək üçün istifadə edirlər. Bu faktdır. Prezidentin iradından sonra bir müddət maska və spirt sarıdan elə də korluq olmasa da, yenidən apteklər əhali üçün bu problemi yaratmaqdadırlar. Hazırda apteklərdə ucuz maskalar yoxdur. Burada qiyməti 3 manat 90 qəpik, bir qədər də ondan baha olan maskalar satılır. Hansı aptekdən "maska varmı" deyə soruşduqda cavab verirlər ki, ucuz maskalar qurtarıb, yalnız 4 manatlıq maskalar var. Həmin 4 manatlıq maskaların isə qiyməti bəzi apteklərdə 3 manat 70 qəpik, bəzilərində 3 manat 90 qəpik, digərlərində isə 4 manatdır. Apteklər deyirlər ki, ucuz maskalar saat 15-də gəlir və gələn kimi də satılır.

Onu da vurğulayaq ki, apteklər əsasən vətəndaşa cəmi 5 ədəd maska, spirti də limitlə satırlar. Sözsüz ki, qiyməti 3 manatdan baha olan tibbi maskanı isə almaq çox vətəndaşın maliyyə imkanları xaricindədir. Apteklər iddia edirlər ki, aidiyyəti dərman şirkətləri, depolar onlara bu vasitələri xüsusi sayla verirlər, bu da vətəndaşların tələbatını ödəmir. Apteklər "tövsiyə" edirlər ki, vətəndaş bahalı maska alsın, onu ən azı bir-iki həftə istifadə edə bilsin.

40 qəpiyə olan spirtin bu gün qiyməti 60-70 qəpikdir. O da tapılsa.

Qeyd edək ki, bir çox ölkədə dərman biznesi ilə məşğul olan şirkətlər, eləcə də iri aptek şəbəkələri şəhərdə əhaliyə pulsuz maska və spirt paylayırlar. Bizdə isə nəinki paylayırlar, hətta satışdan belə yığışdırırlar.

Paytaxt apteklərindən tibbi maskalar və spirt yenə hara yoxa çıxıb? Doğrudanmı apteklərə aidiyyəti şirkətlərdən məhdud sayda maska və tibbi spirt verilir?




Məsələ ilə bağlı "Avromed" şirkətinin və TƏBİB-in mövqeyini öyrənməyə çalışdıq.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) mətbuat xidmətinin rəhbəri Rəvanə Əliyeva "Bakı-Xəbər"ə bildirdi ki, TƏBİB apteklərə nəzarət etmir və bu səbəbdən də yaranan problemə qurum tərəfindən hər hansı bir açıqlama verilə bilməz: "Apteklərin hər hansı dərman vasitələri, yaxud hansısa tibbi vasitələrlə təmin edilməsi TƏBİB-in səlahiyyətinə aid deyil. Qurum yalnız TƏBİB-in tabeliyində olan tibb müəssisələrinin təminatı ilə məşğuldur. Ümumiyyətlə, apteklərin TƏBİB-ə aidiyyəti yoxdur".

"Avromed" şirkətindən isə "Bakı-Xəbər"ə bildirdilər ki, sualımıza tezliklə cavab veriləcək: "Siz telefon nömrənizi saxlayın, əməkdaşlarımız sizin sorğunuza bir azdan cavab verəcək".

Lakin gün ərzində şirkət bizimlə əlaqə saxlamadı, biz yenidən dəfələrlə şirkətə məxsus (055) 20843 29, 30, (012) 514 5577 telefon nömrələrinə zəng vursaq da, yalnız avtobələdçinin "sizi operatora bağlayırıq" cavabını eşitdik, operator isə cavab vermədi. Bu üzdən də apteklərdə ucuz tibbi maskanın və tibbi spirtin hansı səbəbdən qəhətə çıxmasının səbəblərini öyrənə bilmədik. Bəzi apteklər bildirirlər ki, tibbi maska problemi yaxın 1-2 gün ərzində öz həllini tapacaq.

Ekspertlər isə hesab edirlər ki, apteklərdə bu halın yaşanması yenə də möhtəkirlərin meydanda olduğuna dəlalət edir.

***İradə SARIYEVA***

# Azərbaycanın demək olar ki, bütün səhiyyə və humanitar sektoru vergidən azad edildi

**Xəbər verildiyi kimi, elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlar vergidən azad olunub.**



## ***Ruslan Atakişiyev:*** *"Elm və təhsilin vergidən azad olunması elmi kəşflərin artmasına, təhsilin dirçəlməsinə şərait yaradacaq"*

Baş nazir Əli Əsədov "Azərbaycan Respublikası Vergi Məcəlləsinin 106.1.18-ci maddəsinə uyğun olaraq, vergidən azadolunma məqsədləri üçün elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahələrində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatların Meyarları"nın təsdiq edilməsi barədə" Qərar imzalayıb.

Qərara əsasən, elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlar 2019-cu il yanvarın 1-dən 10 il müddətinə vergidən azaddırlar.

Ekspertlərin fikrincə, elm, təhsil, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatların vergidən azad olunması bu sektorun inkişaf etməsinə səbəb olacaq.

İqtisadçı-ekspert Ruslan Atakişiyev bizimlə söhbətində qeyd etdi ki, elm və təhsil sahəsində fəaliyyət göstərən müəssisələrin vergidən azad olunması bu sektorun daha da keyfiyyətli fəaliyyət göstərməsinə səbəb olacaq: "Məlumdur ki, son zamanlar elm və təhsil sahəsində müəyyən problemlər yaşanırdı. Qeyd olunan sahənin vergidən azad olunması elmi kəşflərin artmasına, təhsilin dirçəlməsinə şərait yaradacaq.

*"...bu sektorun daha da keyfiyyətli fəaliyyət göstərməsinə səbəb olacaq"*

Bununla yanaşı, idman və mədəniyyət sahəsinin vergidən azad olunması ilə bu sahədə fərqliliklərin müşahidə edilməsinin şahidi olacağıq. Onu da bildirim ki, bu qərar dövlət tərəfindən təsis olunmuş müəssisə və təşkilatlara şamil olunur".

***Günel CƏLİLOVA***

# Giriş-çıxışın məhdudlaşdırılması və Azərbaycanda koronavirusla mübarizə işinin effekti...

**Məlum olduğu kimi, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən koronavirus infeksiyasının (COVİD-19) qlobal pandemiya elan olunduğunu nəzərə alaraq, Azərbaycan ərazisində virusun yayılmasının qarşısını almaq məqsədilə "ASAN Viza" elektron portalı vasitəsilə 45 gün müddətinə vizaların rəsmiləşdirilməsi dayandırılıb.**

*"Bu kimi önləyici tədbirlərin görülməsi, bir növ, vacib zərurətə çevrilib"*

***Ramil Hüseynov:** "Ölkəyə giriş-çıxışın məhdudlaşdırılması koronavirusla mübarizədə effektli nəticə verə bilər"*

Azərbaycana səfər etmək istəyən xarici ölkə vətəndaşlarının viza rəsmiləşdirilməsi üçün ölkəmizin müvafiq səfirlik və baş konsulluqlarına müraciət etmələri xahiş olunur.

Bütövlükdə, Nazirlər Kabinetinin yanında Operativ qərargah koronavirusla mübarizə ilə bağlı bir sıra qərarlar qəbul edib. Azərbaycan və İran arasında sərhəd müvəqqəti bağlanıb. Qərar ÜST tərəfindən COVİD-19 koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu nəzərə alaraq verilib. Ölkəyə giriş-çıxışa ciddi nəzarət var. Bununla bağlı bir sıra məhdudiyyətlər tətbiq olunur. Eyni zamanda, bir sıra beynəlxalq təyyarə reysləri təxirə salınıb. Yalnız xaricdə qalan və gələ bilməyən Azərbaycan vətəndaşları xüsusi çarter reysilə ölkəyə gətirilir. Ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar müvafiq xəstəxanalar ayrılıb və karantin zonaları yaradılıb. Lazımi avadanlıqların, preparatların, mütəxəssislərin Azərbaycana gətirilməsi üçün müvafiq işlər görülür. Bir sözlə, Azərbaycan tərəfi koronavirusun yarada biləcəyi risqləri önləmək üçün bütün tətbirləri görür. Bu baxımdan ölkəyə giriş-çıxışın məhdudlaşdırılmasının əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən siyasi ekspert Ramil Hüseynovun fikrincə, Azərbaycana giriş-çıxışın məhdudlaşdırılması koronavirusla mübarizədə effektli nəticə verə bilər: "Məlum olduğu kimi, Nazirlər Kabinetinin yanında Operativ qərargah sözügedən məsələni daim diqqət mərkəzində saxlayır. Koronavirusla mübarizə ilə bağlı bir sıra təcili qərarlar qəbul edib və bu



proses davam edir. Ölkəyə giriş-çıxışa məhdudiyyət qoyulmasaydı, o zaman koronavirusun yayılma risqi böyük olardı. Nəzərə almalıyıq ki, təkcə Azərbaycan yox, bir sıra digər ölkələr də belə sərt qərarlar qəbul ediblər. Sərhədləri bağlayıb, əksər təyyarə reyslərini təxirə salıblar. Bu kimi önləyici tədbirlərin görülməsi, bir növ, vacib zərurətə çevrilib. Çünki, adətən, virus gediş-gəliş zamanı kütləvi yayılır. Ona görə də ölkəyə gələnlərin ciddi şəkildə yoxlanılması doğru qərardır. Həmçinin, zərurət olmadıqda giriş-çıxışın qarşısının alınması lazımlı bir addımdır. Hesab edirəm ki, imkan daxilində ölkə vətəndaşları bu aralar zərurət olmadan hansısa xarici ölkəyə getməsinlər. Çünki istənilən risqi düzgün dəyərləndirmək və bundan doğru nəticə çıxarmaq lazımdır".

***Vidadi ORDAHALLI***

# Toy və yas mərasimlərinə qadağalar milli təhlükəsizliyimizin vacib tələbi kimi...

**Azərbaycanda toy mərasimlərinin keçirilməsi qadağan edilib. Bu barədə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb. Məlumatda qeyd olunub ki, ölkə ərazisində bütün toy məclislərinin keçirilməsi qadağan edilib (14 və 15 mart 2020-ci il tarixlərinə əvvəlcədən təyin olunan toy mərasimləri istisna olmaqla).**



***Seyid Camal Əzimbəyli:** "Dövlət tərəfindən verilən bu kimi məhdudlaşdırıcı xarakterli qərarlar müsbət əhəmiyyətə malikdir"*

Eyni zamanda, dəfn mərasimləri istisna olmaqla, mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin keçirilməsi qadağan olunub. Məlumatda qeyd olunur ki, hazırda koronavirus zəminində yaranan fövqəladə şəraitdə yalnız dövlət tərəfindən keçirilən tədbirlər deyil, vətəndaşlarımızın, bütün cəmiyyətin sosial məsuliyyətdən irəli gələn addımları, görülən işlərə dəstəyi vacibdir. Həmçinin bildirilib ki, koronavirus infeksiyası (COVİD-19) dünya ölkələri arasında sürətlə yayılmaqda davam edir. Virusun inkubasiya dövrünün uzun olması, yayılma sürəti və vaksinin hələ də tapılmaması dövlətləri daha da ciddi tədbirlər görməyə sövq edir. Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu nəzərə alaraq və virusun qarşısının alınması istiqamətində ÜST-nin tövsiyə və tələblərindən irəli gələrək ölkə ərazisində bir sıra təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zərurəti yaranıb. Bununla əlaqədar bir ay müddətində kütləvi tədbirlərin təxirə salınması qərara alınıb. Bütövlükdə ekspertlər yas və toy mərasimlərinin qadağan olunmasının əhəmiyyətini necə dəyərləndirir?

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, dövlət tərəfindən verilən bu kimi məhdudlaşdırıcı xarakterli qərarlar müsbət əhəmiyyətə malikdir: "Bu, virusun yayılma riskini aşağı salır. O baxımdan toy və yas mərasimlərinə qoyulan qadağanı müsbət hal kimi dəyərləndirirəm. Koronavirus təhlükəsi fonunda belə bir qadağanın tətbiq olunmasına ciddi ehtiyac var idi. Çünki

*"...hər iki mərasim kütləvi xarakter daşıdığından, cəmiyyət üçün müəyyən potensial risq yaradır"*

hər iki mərasimlər kütləvi xarakter daşıdığından cəmiyyət üçün müəyyən potensial risk yaradır. O üzdən, bu kimi qabaqlayıcı tədbirlərin görülməsi vacib idi. Təhlükəli virusun tüğyan etdiyi indiki dövrdə belə qərarların verilməsi təbiidir. Bəzən elə şərait formalaşır ki, bu istiqamətdə adminstrativ üsulların işə salınmasına zərurət yaranır.

**Ona görə də hamı verilən qərarlara əməl etməlidir. İnsanları mövcud vəziyyətlə bağlı məlumatlandırmaq lazımdır. Yas və toy mərasimlərinin müvəqqəti dayandırılmasının əhəmiyyəti təbliğ edilməlidir. Bu barədə əhali mütəmadi məlumatlandırılmalıdır. Çünki bu məsələ hamını düşündürməlidir. Cəmiyyət dövlətlə birlikdə bu çətinliyin öhdəsindən gələcək".**

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, koronavirusla əlaqədar son günlər neftin qiyməti kəskin şəkildə ucuzlaşıb. Siyasi ambisiya və iqtisadi maraqlardan qaynaqlanan bu kimi problemlər dünya iqtisadiyyatına mənfi təsir edir. Baş verəcək zəncirvari reaksiyanın bütün ölkələrin iqtisadiyyatına təsirsiz ötüşməyəcəyi indidən məlumdur.**

# İki ayda ÜDM-in üç faizlik artımının 60 faizi qaz və qeyri-neft hesabına - neftin çöküşü ilə Azərbaycanın da çökəcəyini iddia edənlərə cavab...



## *Fuad İbrahimov: "Neftin ucuzlaşması ilə əlaqədar Azərbaycan iqtisadiyyatı barədə mənfi rəy yaratmağın əsası yoxdur"*

Bu isə investisiya qoyuluşunun azalması, ticarətin, eləcə də istehsalın aşağı düşməsi, iş yerlərinin ixtisarı və s. neqativ hallar deməkdir.

Məlumdur ki, Azərbaycan iqtisadiyyatında neft amili mühüm rol oynayır. Bu səbəbdən neftin qiymətinin aşağı düşməsi, yumşaq desək, ölkəmiz üçün arzuolunan deyil. Ancaq bəziləri iddia edirlər ki, guya neftin qiymətinin uzun müddət ucuz qalması Azərbaycan iqtisadiyyatına yaxşı perspektiv vəd etmir. Ölkə iqtisadiyyatı bu səbəbdən çökə bilər. Lakin ortada ölkəmizin 2008-ci ildə baş vermiş qlobal maliyyə böhranından vaxtında görülən tədbirlər sayəsində minimum itki ilə çıxması faktı var. O üzdən, Azərbaycanın bu təcrübədən istifadə edərək ehtimal olunan yeni böhranın fəsadlarını minimum səviyyəyə endirəcəyinə şübhə yoxdur.

Digər tərəfdən, bu ilin iki ayının göstəriciləri göstərir ki, neftin iqtisadiyyatda payı azalır. Belə ki, bu ilin yanvar-fevral aylarında Azərbaycanda ümumdaxili məhsul istehsalı 12,5 milyard manat (7,4 milyard dollar) təşkil edib. Bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2,8 faiz çoxdur. Diqqətçəkn məqam odur ki, ÜDM istehsalında qeyri-neft və qaz sektorunun payı 60 faizə çatıb. Bu ilin iki ayında bir nəfərə düşən ÜDM 1 263,7 manat (743.3 dollar) təşkil edib. Bu isə 2019-cu ilin eyni dövrü ilə müqayisədə 1,9 faiz çoxdur.

Göründüyü kimi, Azərbaycan hökuməti 2008-ci il qlobal iqtisadi böhranından, 2015-ci ildə baş verən devalvasiyadan nəticə çıxararaq neft amilinin iqtisadiyyatda rolunu azaltmaq üçün bir sıra tədbirlər görüb və görür. O üzdən, neftin ucuzlaşması ilə əlaqədar, heç də əvvəlki illərdə olduğu kimi, iqtisadiyyat üçün ciddi risq yoxdur.

Maraqlıdır, bəs iqtisadçılar nə deyirlər?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, neftin ucuzlaşması ilə əlaqədar Azərbaycan iqtisadiyyatı ilə bağlı kiminsə mənfi rəy yaratmasının ciddi əsası yoxdur: "Əvvəla baş verənlər tək Azərbaycan iqtisadiyyatına aid deyil. Tək neft hasil edən ölkələrin gəlirləri azalmayıb. Karbohidrogen ehtiyatları olmayan ölkələr də bu gün kompleks şəkildə koronavirus problemindən əziyyət çəkirlər. Neftin qiymətinə təsir edən əsas amillərdən biri koronavirusdur. O üzdən, Azərbaycan iqtisadiyyatında hardasa nöqsan axtarmağın özü ayıbdır. Elə bir vəziyyət yaranıb ki, inkişaf etmiş ölkələrin belə, iqtisadiyyatı proseslərdən ziyan çəkir. Ona görə də neftin ucuzlaşması ilə əlaqədar Azərbaycan iqtisadiyyatı barədə mənfi rəy yaratmağın əsası yoxdur. Belə fikirlər sağlam əsaslara söykənmir. Düzdür, Azərbaycan iqtisadiyyatında neft amilinin rolu var. Ancaq nəzərə almaq lazımdır ki, ölkədə qeyri-neft sektorunun inkişafı ilə bağlı ciddi işlər aparılır. Bunun nəticəsidir ki, bu ilin iki ayının ÜDM istehsalında qeyri-neft və qaz sektorunun payı 60 faizə çatıb.

*"Son illər görülən işlərin nəticəsidir ki, neft amilinin iqtisadiyyatda çəkisi azalmaqdadır"*

Son illər görülən işlərin nəticəsidir ki, neft amilinin iqtisadiyyatda çəkisi azalmaqdadır. 2015-ci ildə neftin 1 barreli büdcədə 90 dollardan götürülmüşdüsə, 2020-ci ilin büdcəsində bu rəqəm 55 dollardır. Bununla yanaşı, neftin qiyməti uzun müddət ucuz qalarsa, o zaman biz iqtisadiyyatımızdakı xərcləri tənzimləyə bilərik. Yəni idxal-ixrac əməliyyatlarında elə etməliyik ki, çox kəskin şəkildə mənfi balans yaranmasın. Daxili istehsalı daha da artırmalıyıq ki, idxal olunan istehlak məhsullarının həcmi daha da azalsın. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycanın kifayət qədər ehtiyat vəsaiti var".

***Vidadi ORDAHALLI***

---

**2019-cu ildə Azərbaycanda kredit qoyuluşunun 20 faizdən çox artmasında istehlak kreditləşməsinin həcminin artması böyük rol oynayıb. Mərkəzi Bankın statistik məlumatlarına əsasən, ötən il real sektora ümumi kredit qoyuluşu 2,096 milyard manat və ya 16,1 faiz artıb.**

# "Express Bank"da istehlak kreditlərinin artımı nə ilə bağlıdır...




## *Əkrəm Həsənov: "...banklar daha çox əməkhaqqı əsasında istehlak krediti ayırır"*

Artımın əsas qaynağı ev təsərrüfatlarına verilən kreditlərin həcminin artımı təşkil edib. Qeyd edək ki, ev təsərrüfatlarına verilən kreditlər dedikdə əsasən istehlak kreditləri başa düşülür. Çünki ev təsərrüfatları aldıqları kreditin 91 faizə qədərini istehlak məqsədilə alırlar. Yalnız 9 faizə yaxın olan kredit vəsaiti sahibkarlıq fəaliyyəti üçün, yəni biznes məqsədilə istifadə olunur.

İstehlak kreditinin verilişinə daha çox önəm verən banklardan biri də "Express Bank"dır. "Express Bank" 2019-cu ilin yekun hesabatında istehlak kreditlərinin 137 mln. 459 min manat olduğunu və həmin ilin 3-cü rübü ilə müqayisədə bu rəqəmin 22 mln. 314 min manat, 2018-ci ilin sonu ilə müqayisədə isə 66 mln. 242 min manat çox olduğunu açıqlayıb.

Ancaq ölkə başçısı İlham Əliyev dəfələrlə çıxışında qeyd edib ki, banklar istehlak kreditinə deyil, daha çox real sektora maraq göstərsinlər. Prezident bununla bağlı "Biz elə etməliyik ki, bank sektoru daha çox real sektoru dəstəkləsin. Ona görə biznes kreditlərinin verilməsində, baxın, hansı mexanizm olmalıdır ki, həm banklar maraqlı olsun, həm də Mərkəzi Bank buna nəzarət etsin" - fikrini qeyd edib.

Buna baxmayaraq, "Express Bank"ın biznes kreditləri 2019-cu ilin sonunda 58 mln. 486 min manat olub ki, bu da 2018-ci ilin sonu ilə müqayisədə 70 717 min manat azdır.

Məsələ ilə bağlı fikir bildirən bank sahəsi üzrə ekspert Əkrəm Həsənov qeyd etdi ki, hazırda banklar üçün ən rahat yol istehlak kreditləridir. Çünki bank istehlakçının aylıq maaşlı işçi olduğunu bilir. Krediti götürən istehlakçı isə bank qaydalarına uyğun olaraq hər ay vaxtlı-vaxtında kreditini ödəyəcək. Yəni burada müştəri ilə bank ayaqlaşır. Amma hər hansı müəssisədə belə deyil. Sahibkarın götürəcəyi məbləğ milyonları əhatə edə bilər. Əvvəllər sahibkarların gəlirliyi çox idi. Ona görə də yüksək faizlə kredit götürə bilirdilər. İndi isə bu barədə fərqlilik var.

*"Banklar biznes krediti verməkdənsə, istehlak krediti verməkdə daha maraqlıdırlar, çünki..."*

Həmsöhbətimiz onu da əlavə etdi ki, hazırda banklar istehlak krediti verməkdə maraqlıdırlar: "Banklar biznes krediti verməkdənsə, istehlak krediti verməkdə daha maraqlıdırlar. Çünki istehlak krediti vermək banklar üçün daha asandır. İstehlak kreditində faiz yüksəkdir, eyni zamanda, kiçik məbləğdə verilir. Belə kreditlərin qaytarılmama ehtimalı azdır. Bir qədər iri istehlak kreditlərinə girov təminatı da ala bilirlər ki, bu da kreditin geri qaytarılmama risqini azaldır. Son dövrlər maaş artımlarının olması əhalinin ödəmə qabiliyyətinə müsbət təsir edib. Maaşlarda artım plastik kartlarla verilən istehlak kreditlərinin miqdarının yüksəlməsinə şərait yaradıb. Amma hazırda hər bank kütləvi şəkildə istehlak krediti də vermir. Banklar daha çox əməkhaqqı əsasında istehlak krediti ayırır".

***Günel CƏLİLOVA***

# Onlayn dərs alan şagird və tələbələrə pulsuz internet?...

**Kamran Əsədov:** *”Azərbaycanda indiki vaxtda hansısa mobil operator, provayder şirkəti pulsuz xidmət göstərsə və tələbələrə güzəştlər etsə...”*



*”Bu gün bilgisayar satışı ilə məşğul olan müxtəlif şirkətlər var və biz həmin şirkətlərdən təşəbbüslər gözləyirik”*

**Orta və ali məktəblərdə distant təhsilin tətbiq olunması üçün vacib şərt həm tələbələrin, həm də şagird və müəllimlərin eyni zamanda kompyuterlə və kəsintisiz internetlə təmin olunmasıdır. Doğrudur, Təhsil Nazirliyi artıq orta məktəb şagirdləri üçün onlayn tədris layihəsini həyata keçirir və bu layihə həm valideynləri, həm də şagirdləri təmin edir.**

Amma ali məktəblərimiz haqqında bu ürəkaçan faktı söyləyə bilmirik. Distant təhsilin ana xəttini təşkil edən kəsintisiz internet və kompyuterlə heç də hər müəllim, eləcə də hər tələbə təmin olunmayıb. Yeri gəlmişkən qeyd edək ki, Türkiyədə və Gürcüstanda distant təhsilin tam gücü ilə işləməsi üçün internet provayderləri tələbə və müəllimlərə pulsuz internet verirlər. Hətta Gürcüstanda kompyuteri olmayan tələbələrin belə kompyuterlə təmin olunması gerçəkləşdirilib. Məlumdur ki, Azərbaycan da daxil olmaqla, dünyanın bütün ölkələri koronavirusla mübarizə aparır. Azərbaycanda bu mübarizə tədbirləri daha mütəşəkkil şəkildə təşkil edilib. Amma burada bəzi özəl şirkətlər, qurumlar dövlətə dəstək nümayiş etdirməli olduğu halda, heç bir təşəbbüs göstərmirlər. Halbuki, ölkənin internet provayderləri, şirkətlər distant təhsilin inkişafına töhfə verməli, tələbələrin pulsuz internetlə və ehtiyacı olanın isə kompyuterlə təmin olunmasına çalışmalıdırlar. Gürcüstanda və Türkiyədə bu işi əsasən özəl şirkətlər həyata keçirirlər.

Koronavirusla bağlı orta və ali məktəblərdə tədrisin müvəqqəti təxirə salındığı məlumdur. Şagirdlər onlayn dərslərlə təmin olunsalar da, tələbələr distant təhsil ala bilmirlər. Bunun bir səbəbi ali məktəblərin distant təhsilə hazır olmaması, digər əsas səbəb isə internetlə və kompyuter təminatı ilə bağlıdır.

Ekspertlər hesab edirlər ki, bu gün ölkədə fəaliyyət göstərən şirkətlər, iri ticarət şəbəkələri dövlətə dəstək nümayiş etdirməli, ehtiyacı olanlara pulsuz kompyuterlər verməli, tələbələr, bütövlükdə, ödənişsiz internetlə təmin edilməlidirlər.

Tanınmış təhsil eksperti Kamran Əsədov hesab edir ki, ölkəmizin koronavirusa qarşı səfərbər olunduğu bir vaxtda özəl şirkətlərin kənarda dayanması doğru deyil. "Əlbəttə, sizin qaldırdığınız məsələ çox aktualdır. Dünya təcrübəsinə baxsaq görərik ki, fövqəladə vəziyyət zamanı özəl və dövlət qurumları əlaqəli işləyirlər. Bu, dövləti möhkəmləndirən və vətəndaşın rahatlığını təmin edən hallardan biridir. Təəssüf ki, biz bunu özəl şirkətlərimizin timsalında görə bilmirik.

Türkiyədə dəfələrlə olub ki, ölkədə hər hansı bir çətinlik baş verirsə, özəl qurumlar həmin yerdə ödənişsiz xidmət göstərirlər. Məsələn, Türkiyədə baş verən son zəlzələ hadisəsi zamanı həmin ərazidəki mobil operatorlar bütün xidmətləri ödənişsiz etdilər. Bu, eyni zamanda, həmin şirkətlərin dövlətin yanında olduğunu və məqsədinin vətəndaşa xidmət olduğunu göstərir. Azərbaycanda isə təəssüflər olsun ki, imkanlı, böyük mobil operatorlar belə bu istiqamətdə hər hansı bir iş görmürlər. Yəni bundan gözəl fürsət ola bilməz ki, həmin şirkətlər vətəndaşı öz yanına çəksin. Azərbaycanda indiki vaxtda hansısa mobil operator, provayder şirkəti pulsuz xidmət göstərsə və tələbələrə güzəştlər etsə, digər vətəndaşlar da öz nömrələrini həmin mobil operatora daşıyacaqlar. Bu da gələcəyə qoyulmuş bir sərmayədir. Bu, məsələnin birinci tərəfidir. İkinci tərəfi isə Azərbaycanda təhsilin əlçatanlığı prinsipidir. Təəssüflər olsun ki, biz bunu yenə də dövlətdən gözləyirik. Bu gün koronavirusla bağlı tədrisin müvəqqəti təxirə salınması Azərbaycanda distant təhsilin tətbiq edilmədiyini ortaya çıxardı. Baxmayaraq ki, 2009-cu ildə qəbul edilən "Təhsil haqqında" Qanunda distant təhsil almağın qaydalarının təsdiq olunması və tətbiq edilməsi qeyd edilmişdi. 11 il keçib, amma bizim heç bir təhsil müəssisəmiz bu istiqamətdə iş aparmayıb. Bu gün Təhsil Nazirliyi 1, 5 miyon şagird üçün "Mədəniyyət" Televiziyasında "Dərs saatı" layihəsini həyata keçirirsə, müəyyən qədər orta məktəb şagirdinin tələbatı ödənilirsə, ali təhsil müəssisələri haqqında biz bunları deyə bilmərik. Təsəvvür edin ki, 54 ali təhsil müəssisəmiz var və burada 165 min nəfər tələbə təhsil alır. Onların pozulmuş dərs axarını bərpa etmək mümkün olmadı. Bu çox ciddi bir qüsur və çatışmazlıqdır. Hesab edirəm ki, bu istiqamətdə işlər aparılmalıdır. Təkcə mobil operatorlar deyil, həm də internet provayderləri öz xidmətlərini tələbələr və müəllimlər üçün ya tamamilə ödənişsiz etməli, ya da böyük güzəştlər tətbiq olunmalıdır. Söhbət təkcə Bakıdan getmir. Bilirsiniz ki, bölgələrdə 90 faiz mobil operatorların internet xidmətindən istifadə olunur. Burada əsas iş düşür mobil operatorlara".

**K.Əsədov qeyd etdi ki, koronavirus təhlükəsi bütün dünyanın bəlasıdır və bu bəladan sovuşmaq üçün Azərbaycanın özəl şirkətlərindən də asılı olan məsələlər var. O hesab edir ki, bizim özəl şirkətlər özlərini kənara çəkiblər: "Bu gün bilgisayar satışı ilə məşğul olan müxtəlif şirkətlər var və biz həmin şirkətlərdən təşəbbüslər gözləyirik ki, onlar tələbələrə kompyuter hədiyyə etsinlər, yaxud çox cüzi faizlə, ya da faizsiz kompyuter satsınlar. Bilirəm ki, bizdə pulsuz kompyuter təklif edən şirkət olmaz, amma, hər halda, satış bir qədər güzəştli şərtlərlə edilməlidir ki, tələbələr, müəllimlər kompyuteri alıb istifadə etsinlər. Bu addım atılarsa, çox effektiv olar" - deyə K.Əsədov vurğuladı.**

***İradə SARIYEVA***

# Qəlyan çəkilişlərini hələ də davam etdirən kafe və barlara hansı cəza düşür...

**Çoxları üçün məsum görünən bir əyləncə növü var - qəlyan. Azərbaycanda qəlyan son illər xeyli populyarlaşıb. Bir çox kafe, restoran müxtəlif qəlyan növləri təklif etməklə müştərilərinin sayını artırmağa çalışır.**

*"Cəriməyə rəğmən, tətbiq olunmuş qadağaya məhəl qoymayan kafelərin fəaliyyəti dayandırılmalıdır"*

***İlqar Hüseynli:** "Qadağaya baxmayaraq, Bakıdakı bəzi kafelər hələ də qəlyandan istifadə edirlər"*



Bir çox insan qəlyanı zərərsiz hesab etsə də, ekspertlər əksini iddia edirlər. Elə bu səbəbdən də bir çox ölkədə qəlyan satışı və istifadəsi qadağan olunub. Analoji qərar bu günlərdə ölkəmizdə də tətbiq olundu. Məlumdur ki, son zamanlar bütün dünya koronavirusdan əziyyət çəkir.

Nazirlər Kabinetinin yanında Operativ qərargahın yaydığı məlumatda qeyd olunur ki, koronavirus (COVİD - 19) infeksiyasının tənəffüs damcıları ilə birbaşa təmas yolu ilə ötürüldüyü və yuxarı tənəffüs yollarının infeksiyası kimi təzahür etdiyi nəzərə alınaraq, ölkə ərazisindəki bütün ictimai iaşə obyektlərində çoxdəfəli istifadə üçün nəzərdə tutulmuş qəlyan avadanlıqlarından istifadə qadağan edilir.

Qadağaya baxmayaraq, Bakıdakı bəzi kafelər hələ də qəlyandan istifadə edirlər. Bakı Şəhər İcra Hakimiyyətinin Ticarət və Xidmət Departamenti rayon polis idarələri ilə birgə paytaxtın ictimai iaşə obyektlərində, kafe və restoranlarında qəlyan çəkilməsinin qarşısının alınması məqsədilə keçirilən reyd zamanı pozuntular aşkar olunub. Məlumat üçün bildirək ki, neqativ hallar Səbail rayonu, İçərişəhərdəki "Museum İnn" otelinin kafesində, Nəsimi rayonu, Süleyman Rüstəm küçəsi 11 ünvanındakı "Pafos" Karaoke Sinema Klubda, Cavadxan küçəsindəki "Korona" kafesində, Nəsimi rayonundakı "Badam" çay evində, Sabunçu rayonunda "MM" çay evində, Suraxanı rayonu, Yeni Günəşli qəsəbəsi, "Çardaq" kafesində aşkar edilib.

Maraqlıdır, qadağaya əməl etməyən iaşə obyektlərini nə kimi cəza gözləyir?

Sosial sahə üzrə mütəxəssis İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, dövlət tərəfindən müəyyən olunmuş qadağaya əməl etməyən iaşə obyektlərinin sahibləri sərt şəkildə cəzalandırılmalıdırlar: "İlk olaraq həmin kafelər müəyyən məbləğdə cərimələnməlidirlər. Cərimələyə rəğmən, tətbiq olunmuş qadağaya məhəl qoymayan kafelərin fəaliyyəti dayandırılmalıdır. Məlumdur ki, bu qadağa koronavirusla mübarizə üçün tətbiq olunub. Bu xəstəlik də nəfəs yolu ilə keçir. Danılmaz faktdır ki, qəlyan, eyni zamanda, yoluxucu xəstəliklərin yayılmasına səbəb olur. Gün ərzində qəlyandan onlarla insan istifadə edir, ağızlığı və suyu nə qədər dəyişdirilsə də, dumanın keçdiyi boru dəyişmir. Bu səbəbdən də nəfəs yolu ilə xəstəliklərin keçməsi qaçılmaz olur. Xəstə insanın qəlyandan istifadə etməsi mikroorqanizmlərin o boruya yerləşməsinə və sağlam birini yoluxdurmasına səbəb olur".

*Günel CƏLİLOVA*

# "Sığorta Mamed" 2 ildə dövlət sığorta sisteminə nə verə bildi...

**Dövlət Sığorta Kommersiya Şirkətinin (Azərsığorta) sədri Məmməd Əhməd oğlu Məmmədov vəzifəsindən azad edilib. Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb. Xatırladaq ki, M.Məmmədov 13 yanvar 1993-cü ildə Azərbaycan Respublikası Dövlət Sığorta Şirkətinin İdarə Heyətinin sədri vəzifəsinə təyin edilib.**



***Asif İbrahimov:** "Azərbaycanda icbari tibbi sığorta haqqında qanun qəbul edilib, ancaq bunun işləkliyini təmin edən mexanizm hələ hazırlanmayıb"*

Bu günə qədə həmin vəzifədə işləyib. Qeyd edək ki, "Sığorta Mamed" kimi tanınan Məmməd Məmmədov Azərbaycanın ən varlı şəxslərindən biri hesab olunur. Mətbuatda yayılan məlumatlarda "Sığorta Mamed"in Türkiyədə, Çexiyada əmlaklarının olduğu bildirilib. Hətta şirkət rəhbərinin Çexiyanın Karlovı Varı şəhərində özünə dəyəri bir neçə milyon dollarla ölçülən villia inşa etdirdiyi iddia olunub. Məmməd Məmmədovun belə böyük pulları necə qazanmasına dair də mediada məlumatlar yayılıb. Belə ki, mətbuatda çıxan xəbərlərə görə, şirkətin sığorta fəaliyyətində saxtakarlıqlara yol verilir. Hətta Milli Məclisin deputatı Fazil Mustafa parlamentin iclasında şəhid ailələrinə 11 min manat birdəfəlik yardımın "Sığorta Mamed"in rəhbərlik etdiyi şirkət tərəfindən mənimsənildiyini bildirmişdi. "Sığorta Mamed"in oğlanlarının adı da müxtəlif qalmaqallı hadisələrdə hallanıb.

Bu müddət ərzində "Sığorta Mamed" Azərbaycanın sığorta sisteminə nə verə bildi? Beynəlxalq idarəetmə standartları üzrə mütəxəssis, iqtisadçı Asif İbrahimov "Bakı-Xəbər"ə bildirdi ki, bir çox sahələrdə olduğu kimi, sığorta sahəsində də çatışmazlıqlar mövcuddur və onların həlli vacibdir: "Hesab edirəm ki, bu, sırf fərdlərlə bağlı olan məsələ deyil. Qanunvericilik sahəsində təkmilləşdirmə aparılmalıdır. Əsasən icbari sığorta sahəsində narazılıqlar var. 99 faiz insan bundan narazı qalır. İstər qiymətləndirmə, istər sığortanın ödənilməsində bir çox neqativ faktorlar var. Avropada sığorta ombudsmanı funksiyasını həyata keçirən institutlar var. Bu təsisatlar sığorta sahəsində olan mübahisələrin həllini qarşılıqlı razılaşamalr yolu ilə həll edirlər. Dəymiş zərər düşgün müəyyənləşir və müqayisəli şəkildə qiymətləndirmələr aparılır. Bu üsullardan istifadə tərəfləri məmnun edir. Azərbaycanda isə son 30 ildə yaranmış problemlərin bir çoxu qanunvericilikdə olan boşluqla əlaqəlidir.

Məsələn, İranda avtoqəza baş verəndən sonra heç kim bir-biri ilə mübhisə etmir. Gözləyirlər ki, sığorta mütəxəssisi gəlib, dəymiş zərəri ödəyəcək. Bir çox qaydalar var ki, bu müddət ərzində bizim sığorta sisteminə oturdulmayıb. Sığorta ilə bağlı qanunverciliyimzdə ciddi islahatlara ehtiyac var. Sığorta bir neçə sahəni əhatə edir.

**Məsələn, Azərbaycanda icbari tibbi sığorta haqqında qanun qəbul edilib, ancaq bunun işləkliyini təmin edən mexanizm hələ hazırlanmayıb. Əmanətlərin sığortalanması sahəsində də boşluqlar və problemlərimiz var. Ötən illər ərzində vətəndaşlarımız kütləvi olaraq bu hallarla üzləşib. Bütün bu sahələrlə bağlı ciddi tədbirlər görülməlidir. Şəxslərin öhdəsinə bunu buraxmaq olmaz. Qanunvericilik sərtləşdirilərək, icraçıdan buna müvafiq fəaliyyət tələb olunmalıdır".**

*Məhəmmədəli QƏRİBLİ*

№ 47 (4178) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

17 MART 2020-ci il

www.baki-xeber.com



# Hörümçəklərin qoza ipəyinidən tibbdə istifadə olunacaq

**Türkiyənin Hacettepe Universitetində, Qaradəniz bölgəsinə məxsus hörümçəyin qoza ipəyini istifadə edərək zərər görmüş dəri, əzələ və sümük toxumalarının sürətli müalicəsini təmin edən tibbi məhsullar əldə edilib.**

"Medicina.az" bildirir ki, fizik və bioloqlardan ibarət komanda, hörümçək ipəyini istifadə edərək yara bandı, cərrahi iplər, gel və mikro toz forumunda bioloji toxuma bərpası məhsulları hazırlayıblar. Hazırlanan bu məhsullar patentləşdirilib. Toxumanın yaxşılaşması müddətini azaldan, insan toxumasına ən yaxın özəllikləri olan bu bioloji məhsullardan əməliyyatda istifadə olunandan sonra onları sökməyə ehtiyac qalmır. Hazırlanan digər məhsullar da yüksək keyfiyyət, üstün bioloji uyğunluğu, müxtəlif bakteriya və göbələklərə qarşı güclü biyoaktiv tərkibə malikdir.

## Son 1 il ərzində "Nar" abunəçilərinin internetdən istifadəsi 65% artıb

**Bütün ölkə əhalisini yüksək keyfiyyətli şəbəkə ilə təmin etməyi hədəfləyən "Nar" abunəçilərini kəsintisiz və sürətli internet təcrübəsi ilə təmin etməkdədir. Belə ki, mobil operatorun təqdim etdiyi yüksəkkeyfiyyətli internet xidməti nəticəsində internet trafikinin həcmi son 1 il ərzində 65% yüksəlib.**

Qeyd edək ki, artıma bütün ölkə ərazisində LTE/LTE-A texnologiyalı baza stansiyalarının genişlənməsi, smartfon penetrasiyasının artımı, eləcə də müştərilərin internetə olan ehtiyaclarını qarşılamaq məqsədilə təqdim edilən məhsullar səbəb olub. Belə ki, son 1 il ərzində Bakı üzrə smartfon istifadəçilərinin sayı 15%, regionlar üzrə isə 14% artıb.

"Nar"ın abunəçilərini keyfiyyətli internetlə təmin etməsi nəticəsində 4G istifadəçilərinin sayı 1 milyonu ötüb. Bununla da hər iki "Nar" abunəçisindən biri aktiv 4G istifadəçisidir. Hazırda 54 bölgə mərkəzini LTE texnologiyalı baza stansiyası ilə təmin edən mobil operator ölkə ərazisinin 76%-ni (işğal olunmuş ərazilər istisna olmaqla), ölkə əhalisinin isə 93,2%-ni 4G/4.5G şəbəkəsi ilə əhatə edir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## Koronavirus infeksiyası (COVID-19) ilə əlaqədar "Azercell" xidmət mərkəzlərində xüsusi iş rejimi elan edilir

**Koronavirus infeksiyasının (COVID-19) Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ qərargahın bir ay müddətində kütləvi tədbirlərin təxirə salınması, həmçinin, dövlət və özəl sektora aid qurumların fəaliyyəti üçün xüsusi qaydaların işlənib hazırlanmasına dair qərarına uyğun olaraq, "Azercell Telekom" MMC öz ofis və xidmət mərkəzlərində xüsusi iş rejimini tətbiq edir.**

Belə ki, Bakı və bölgələrdə çalışan Müştəri Xidmətləri Mərkəzləri, "Azercell Eksklüziv" və "Azercell Ekspres" ofisləri, eləcə də "Azercell"in rəsmi diler məntəqələri fəaliyyətini davam etdirərək hər gün 09:00-dan 18:00-a qədər müştərilərə xidmət göstərəcək. Eyni zamanda, virusdan qorunmaq məqsədilə bütün ofislər qoruyucu maska, əlcək, antiseptik vasitələrlə təmin edilir, ofislərdə mütəmadi olaraq dezinfeksiya tədbirləri həyata keçirilir.

Bununla yanaşı, ölkədə tətbiq olunan qabaqlayıcı tədbirləri nəzərə alaraq, "Azercell Telekom" öz abunəçilərinə ev şəraitindən ayrılmamaları və kütləvi insan axınının movcud olduğu yerlərə baş çəkməmələri üçün şirkətin aşağıdakı alternativ xidmət kanallarından istifadə etməyi tövsiyə edir:

Online Müştəri Xidmətləri https://www.azercell.com/az/;

"Kabinetim" Mobil tətbiqi və onun tərkibindəki çat xidməti https://www.azercell.com/my/login;

"Azercell"in rəsmi "Facebook", "Twitter" və "Instagram" səhifələri;

"Azercell" Telefon Mərkəzi:

- Fakturalı Xətt abunəçiləri: +994(012) 4905252 şəhər nömrəsi və ya 6565 qısa nömrəsinə
- Fakturasız Xətt (SimSim) abunəçiləri: +994(012) 4904949 şəhər nömrəsi və ya 2002 qısa nömrəsinə.

Qeyd etmək lazımdır ki, yaranmış vəziyyətlə bağlı şirkətin fəaliyyətində müştəri məmnuniyyətinə təsir edə biləcək heç bir texniki problem və ya ləngimə nəzərdə tutulmur və "Azercell"in bütün texniki heyəti, Müştəri Xidmətləri Mərkəzləri, həmçinin, məsul vəzifələri icra edən departament rəhbərləri və şirkət prezidenti xüsusi iş rejimində fəaliyyətlərini davam etdirəcəklər.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Şəki şəhər sakini Münavəri Əliheydər Qədimalı oğlunun adına verilmiş 2649 Nəli ev qeydiyyat vəsiqəsi itdiyindən etibarsız hesab edilir.

"Cəyirli" sudan istifadə birliyi 0070047 saylı uçot vahidlərinin dövlət reyestrinə daxil edilməsi haqqında şahadətnamə itdiyindən etibarsız hesab edilsin.





**Qoç** - Münasibətlər bərpa olur, gələcəklə bağlı perspektivlərin formalaşdırılmasında bəzi adamlarla razılıq əldə olunur. Yeni təəssüratların mənbəyi dostlar və iş yoldaşları olacaqlar.



**Buğa** - Yeni orientirləri seçin. Yaxın ətrafınızdakı emosionallığa fikir verməyin, təsirlərə və təzyiqlərə dayanıqlı olun. Daha çox hərəkət edin, daha az mübahisə aparın. Axşam saatlarında fəal olun.



**Əkizlər** - Hissləriniz və emosiyalarınız dayanıqlı, səbatlı deyil. Maraqlarınızı, istəklərinizi nə isə tam yeni məcraya yönəldə bilər. İşgüzar və ya şəxsi həyatınızda yetərincə mühüm məsələ həllini gözləyir.



**Xərçəng** - Bir qədər əsəbi, həyacanlı vəziyyətdəsiniz. Bayramdan sonra iş ahəngini bərpa etmək çətindir. Gərginliyi unutsanız, hər işin öhdəsindən gələ bilərsiniz. Axşam saatlarına qədər yorulmamağa çalışın.



**Şir** - Bəzi münasibətlərə və işlərə tamamilə yenidən, fərqli mərhələdən başlamağa ehtiyac var. Önəm verdiyiniz insan və ya nəsnəni qoruyun. Axşam saatlarında sakitliyi seçin.



**Qız** - İndi ən mühüm məsələ evdə sakitliyi qoruyaraq yaxın adamlarınızla əlaqələri pozmamaqdır. Ailə üzvləri və qohumlardan kimsəni diqqətinizdən kənarda saxlamayın. Sakitliyə üstünlük verin, gələcəklə bağlı planlarınızı dəqiqləşdirin.



**Tərəzi** - Yeni ilin ilk günü təmaslarınızın xoş olmasına çalışın. Ən kiçik məsələlərə görə mübahisə etməyin. Fikir ayrılıqları yarana bilər. Anlaşılmazlıqları çözün. Mövqeləri aydınlaşdıraraq mübahisələr yaratmayın.



**Əqrəb** - Hisslərinizdə tam qarışıqlıqdır. Nəinki yaxın adamınızı, hətta özünüzü çətinliklə anlayırsınız. Zənglər, məktublar və söhbətlər ruhunu səbatlaşdırmağa imkan verər. Axınla üzün, baş verənlərə müqavimət göstərməyin.



**Oxatan** - Doğru qərarlar verərək yanlış yolla getməkdən uzaq durun. Hadisələrin inkişaf məcrasını müşahidə edin. Sizi kimsənin qəflətən yaxalamasına imkan verməyin, baş verənlərdə sizə faydalı ola biləcək təfərrüatlar arayın.



**Oğlaq** - Sizi müxtəlif tərəflərə çəkən istəklər və maraqlar problemlər yarada bilər. İzafi gərginlik hansısa işi başa vurmağa maneçilik yaradır. Eyni vaxtda bir neçə işə başlamayın. Tələsməyin, prioritetləri müəyyənləşdirin.



**Dolça** - Gündəmdə olan planların reallaşdırılması üçün yaxşı gündür. Prosesin ləngiməməsi üçün detalları düşünün. Nəticələri əvvəlcədən hesablayın, sonra konkret addımlar atın. Bu gün eyni zamanda bir neçə iş görməyə çalışmayın.



**Balıqlar** - Bu gün bəzi hadisələrin mahiyyəti bəlli olacaq, kurs müəyyənləşəcək, konkretlik əldə olunacaq. Yeni ilin ilk günü sizə xoş əhval-ruhiyyə, istirahət və əyləncə vəd edir. Xırdalıqlara diqqət yetirin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## NASA işçi axtarır - Maaş 162 min dollar

**NASA-da Ay və Marsa səyahət üçün astronavt axtarılır. "Ted.az" bildirir ki, NASA-nın rəsmi vakansiya elanında işə qəbul ediləcək astronavtların illik məvaciblərinin 105 -162 min dollar arsında dəyişəcəyi yazılıb. Şirkət rəsmiləri Ay və Marsa səyahətin yaxın 15 il ərzində keçirləcəyini bildiriblər.**

İşə qəbul üçün müraciət tarixi isə martın 2-dən 31-dək davam edəcək. İşə qəbul edilənlərin Ay və Marsdakı əməliyyatlarda iştirak edəcəkləri bildirilib. NASA astronavtları işə qəbul edərkən 16 sualdan ibarət test vasitəsilə imtahan edəcək.

Testlər fizika, NASA barəsində ümumi bilgi, psixologiya ilə bağlı olacaq. Xatırladaq ki, sonuncu dəfə 2015-ci ildə astronavt təhsili üçün elan verən NASA qeydiyyatdan keçən 18 300 şəxsdən 12-ni qəbul etsə də, onlardan cəmi 11-i bu il məzun ola bilib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.